
SƏMAVİ
HƏDİYYƏLƏR
5-ci kitab

بسم الله الرحمن الرحيم

# Bismillahir Rəhmanir Rəhim

Beşinci kitab



Bu işarə tapşırığın əlverişli zamanda yerinə yetirilməsini və daha çox vaxt tələb etdiyini bildirir. Tapşırığın tədrisdən dərhal sonra icrası zəruri deyil.

Bu işarə tapşırığın sinifdə və mətni oxuduqdan dərhal sonra yerinə yetirilməsinin zəruriliyini bildirir.

Bu işarə verilən tapşırığın iş dəftərində icra olunduğunu bildirir. Bu cür tapşırıqları həm sinifdə, həm də evdə yerinə yetirmək mümkündür.

# Səmavi hədiyyələr

## Beçinci kitab

## İslam təlim-tərbiyəsi

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمِنٌ
فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

**“Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik”.**

**(Qurani-Kərim, Nəhl surəsi, 97-ci ayə)**

Uca Yaradanımız tərəfindən həzrət Muhəmməd Peyğəmbərə (s) göndərilmiş İslam dini özündə etiqadlar, əxlaq, şəriət hökmləri və qayda-qanunları ehtiva edir. İnsan gözəl həyat yaşayıb Allaha yaxınlaşmaq üçün məhz bunlara ehtiyac duyur. İslam təlimlərinin əsas mənbəyi Quran, həzrət Peyğəmbərin (s) və onun həqiqi davamçıları sayılan məsum İmamların (ə) sünnəsi və sağlam ağıla əsaslanır. Bunu nəzərə alaraq, İslam maarifini öyrənmək hər bir müsəlman üçün zəruridir.

Əlinizdə olan bu kitabın hazırlanmasında başlıca məqsəd yeniyetmələrin müqəddəs İslam təlimləri əsasında ağıl, iman, elm, əməl və əxlaq baxımından düzgün şəkildə yetişdirilməsidir. Belə ki, bunun sayəsində onlar öz mövqelərini həm özlərinə, həm Allaha, həm bəndələrə, həm də yaradılışa qarşı düzgün şəkildə anlayıb cəmiyyətdə fərdi, o cümlədən ictimai mövqe nümayiş etdirməyi bacarsınlar.

Uca Allahdan dini vəzifələrin yerinə yetirilməsində hamıya uğurlar arzu edirəm.

**Professor Ərafi**

**Bismillahir Rəhmanir Rəhim**

**Bağışlayan və mehriban Allahın adı ilə. O, insana Quranı öyrətdi. Həqiqət axtarmaq nemətini və Özünü tanımaq nemətini bəxş etdi.**

Rəbbimiz bizə İslam təlim-tərbiyəsi sahəsində uşaqlara, yeniyetmələrə və xidmət etmək şərəfini nəsib etdi.

MSEN (MUSLİM SCHOOLS EDUCATİON NETWORK) böyük alimlərin rəhbərliyi altında insanlara dini-əxlaqi dəyərləri təqdim edən bir qurumdur. Qurumun əsas fəaliyyəti gələcəyin qurucuları olan bu günkü nəslin əxlaqi və mənəvi baxımından yetişdirilməsində müəllim, valideyn və şagirdlərlə həmkarlıq etməkdən ibarətdir. Aşağıda bir sıra məqsədlərimizi təqdim edirik:

* İslam təlim-tərbiyəsinin tədrisi üçün aydın və gözəl bir hədəf bəyan etmək;
* Mənbələr, ixtisaslar və təcrübələrin mübadiləsi üçün geniş bir ədəbiyyat təqdim etmək;
* Əxlaqi və mənəvi bir dəyişikliyin formalaşmasında əhatəli bir ortamın yüksəldilməsi;
* İslam təlim-tərbiyəsinin kursu, məzmunu, metodları və dəyərləndirilməsi üçün çalışmaq.

Bu qurumun əsas məqsədi mənəvi dəyərlərin öyrənilməsində yüksək dizaynla hazırlanmış kamil bir məcmuəni təqdim etməkdir. Allahın mərhəməti və yüksək səviyyəli kadrların həmkarlığı ilə bu məqsədə doğru önəmli bir addım atılmışdır.

Bu qəbildən olan kitablar əsasən mötəbər İslami mənbələrə əsaslanmaqla yanaşı maraqlı və cəlbedici metodlardan istifadə edərək etiqad prinsipləri, əxlaq və dini hökmləri ehtiva edir. Bu məcmuə əsasən İslamın əsas meyarlarına – ağıl, mənəviyyat, mötədillik və sülhə əsaslanaraq tərtib edilmişdir.

Yeri gəlmişkən, bu böyük işdə bizimlə əməkdaşlıq etmiş bütün həmkarlara, xüsusilə də professor Ərafi, doktor Məhəmməd Məhəmmədian, doktor İbrahimi və cənab Fəyyaziyə təşəkkür etməyi özümüzə borc bilirik.

Habelə MSEN-dəki həmkarlarımızın akademik dəstəyinə, xüsusilə doktor Əzhər Həsənrza, Bilal Rizəvi, Nəzirə Musa, Səfinə Səadət, Nazənin Davdani, Şahin Heydər, Sima Cəmaləddin, Laden Razeqi və Şəhrbanu Cəfəriyə bu məcmuənin öz məqsədinə çatmasında misilsiz zəhmətlərinə görə təşəkkür edirik.

**İsa Cahangir**
**MSEN**

Salam, əziz dost!
1. Allah!
2. Su quyusunda tənha
3. Bir olan!
4. Mən Allahın bəndəsiyəm!
5. Biz bütpərəst idik...
6. Ertəsi gün səhər...
7. Həyat yolunu göstərənlər
8. Bu kitab..!
9. Qardaşım, qayıt!
10. Peyğəmbərin mirası
11. İsraf

12. Taxta qayıq
13. Qiymətli daş

14. ......
15. Dostla əl-ələ
16. Son yarpaqlar
17. Bir tətil günü
18. Mən inanıram ki,..
19. Sirli bağ
20. Əvəz çıxmaq
21. “Şirlər” və “Pələnglər”in oyunu
22. Camaatın haqqı
23. Ən yaxşı gün!

# Mündəricat

14

16

20

24



28



34

38

42



46

48



54



58

62

68



72

76



80

84

88



90

94



98

100





# Salam, əziz dost!

*Xoş xatirələr...!*



İlk dəfə səni görəndə ikinci sinifdə oxuyurdun. Sanki kiçik bir qönçə, bir gül pöhrəsi idin. Hər sübhün şəfəqində, sanki təbəssümlə çırtlayan bir qönçə.

Yadındadır, o günlər **"Günəştək"** istiqanlı və mehriban olmağı öyrənirdin? **"Güllərin sevinci"**ni izləyib **"Buludların gəlişi"** ilə **"Allahın hədiyyələri"**ni – çiskin yağış damcılarını – üzündə və əllərində hiss edirdin!

Yadındadır, dostlarınla birgə həzrət Muhəmməd peyğəmbərin (s) və mehriban İmamlarımızın (ə) **"Doğum günü mərasimi"**ndə iştirak edib uşaqların əhatəsində şənlənməyi öyrəndiyini deyirdin?

O günlər **"Süfrə ətrafında"** ədəb-ərkanla oturmağı, ciddi cəhdlə özünü və məhlənizdəki bağçanın "yaşıl oturacağını" tər-təmiz saxlamağa səy göstərməyi



öyrəndin.
Üçüncü sinifə qədəm qoyanda küləklə birgə uçan göyərçintək dörd bir yana pərvaz etdin! Özünün **"Ən mehriban dost"**unu tanıdın. **"Təbiət uşaqları"** ilə birlikdə **"Peyğəmbər təbəssümü"**nü gördün. Daha sonra Möhsün və Sadiqlə tanış olub həm onların, həm də özünün gördüyün **"İşin sonu"** barədə düşünüb-daşındın.
Bir gün çox sevdiyin bir hədiyyə ilə **"Ən ağıllı insanlar"**la birgə **"Xəstə ziyarəti"** nə getdin. Başqa bir gün isə **"Müsəlmanların bayramları"**nda iştirak etdin. Nəhayət, bir gün özünə dedin: **"Mən artıq böyümüşəm!"** Beləcə, həyatının **"Ən doğru qərar"**ları barədə fikirləşdin.
Dördüncü sinifdə olanlar yadına gəlir? Yusif və Həsənlə birgə **"Unudulmaz səfər"**ə getdiyin o günü xatırlayırsan? **"Müsəlmanların məscidləri"**ni görüb **"Dost üçün"** şirin xatirələrini danışdın.

Bəs **"İnşa"**da **"Mənim xəyallarım"** mövzusunu seçdiyin o günü?! Gözəl xəyallarını dilə gətirdin və o **"Payız axşamı"**ndakı **"Ac dovşan"** balaları üçün şirin arzular dilədin!

Hazırda beşinci sinifdəsən! Böyümüsən, daha ağıllı olmusan! Daha yaxşı fikirləşir, daha yaxşı anlayır və daha düzgün qərarlar qəbul edirsən. Yaxşını ayırd edə bilirsən, yaxşılığı sevirsən və hamişə yaxşı olmağa can atırsan. Mən yenə də sənə **"Səmavi hədiyyələr"** gətirmişəm! Doğru deyirəm! İlin sonunda səninlə sağollaşanda, düzü, **"Sənsiz"** qəmgin olacam, amma inanıram ki, biz **"Həmişə birlikdə"** olacayıq, həmişə bir-





birimizin yadında qalacayıq! **"Mənim böyük arzum"** odur ki, bir **"Xatirə şəkli"**m sənin yaddaşında həmişəlik qalsın və məni həyatın boyu unutmayasan!
Sonda onu demək istərdim ki, mənim nəzərimdə **"Ən gözəl gün"** intizarın sona çatdığı gündür! **"Dostla əl-ələ"** verib **"Ertəsi gün səhər"**i ümid və sevinclə qarşılayaq.
Elə həmin günün ümidilə, səhərlər səmaya sarı can atıb dırmanan yaşıl sarmaşıq kimi, əlimi bir əbədi dostluq nişanəsi olaraq sənə tərəf uzadıram! **"Bir olan"** Allah sənə dayaq olsun və səni Öz amanında saxlasın!

حَسْبُنَا اللّٰهُ وَنِعْمَ الْوَكِيلُ

**"Bizə Allah kifayətdir və O, gözəl vəkildir!"**

(Ali İmran surəsi, 173-cü ayə)



1

# Allah!

Sən bənzərsiz Allahsan,
Sən yeganə və təksən!
Necə də qayğıkeşsən,
Paksan və qüvvətlisən!

***

Sən bulağa səsləndin:
“Yerin köksündən çağla!”
Susuz çöllərə dedin:
“Doyunca içib barla!”

***

Şehlərə də əmr etdin:
“Ləçəklərdə yerləşin!”
Xəzan yelinə dedin:
“Çəmənlərdən gül biçin!”

***

Minlərlə gözəl ilmə
Toxudun gül-çiçəklə.
Yeri, göyü, aləmi
Yaratdın xoş diləklə!



**1. Cavab verin**

- Qeyd edilən şeir nədən bəhs edir?

**2. Tapşırığı yerinə yetirin**

- Qeyd edilən şerin mənasını bir neçə cümlə ilə izah edin.
- Dostlarınızla birgə şeri gözəl intonasiya ilə oxuyun.



# Su quyusunda tənha

“Ey mehriban Allah!

Bizə belə qiymətli hədiyyə bəxş etdiyin üçün Sənə şükür edirəm!

Ay kimi parlaq olan siması ilə evimizi nurlandıran belə bir gözəl və tərbiyəli uşağı bəxş etdin...”

Yaqub peyğəmbər (ə) balaca Yusifin oynadığına baxıb bu ifadələrlə bir olan Allah-taalaya şükür edirdi.

•

Başqa bir tərəfdə isə bir neçə gənc öz aralarında asta-asta söhbət edirdi:

- Atamız Yaqub Yusifə olan məhəbbətində həddini aşır.
- Həə... O, kiçik övladını bizdən artıq sevir.
- Halbuki o balaca heç qoyunları otarmağı da bacarmır!

Yusifin qardaşları istəyirdilər ki, ataları yalnız onları sevsin. Həsədləri üzündən bir-birlərinə dedilər:

- Yeganə yol odur ki, onu atamızdan uzaqlaşdıraq.
- Onu dərin bir quyuya ataq.



- Bəs atamıza nə deyəcəyik?

- Deyərik ki,..

Yusifin gözəl üzünü toz-torpaq örtmüşdü.

O, yuxarıda, quyunun ağzında qardaşlarının səsini eşidirdi:

- Elə burada buraxıb gedək.

- Bəlkə yuxuda oradan çıxmağa bir yol tapdı.

Onlar Yusifin köynəyini hansısa heyvanın qanına bulaşdırıb ataları Yaqubun (ə) yanına qayıtdılar. Həzrət Yaqub (ə) ağladı, sızladı, qəlbi yana-yana Allahdan bolluca səbir dilədi.

Yaqubun (ə) "günəşi" indi tək-tənha quyunun dibindədir.

Yalqız, nəm və soyuq quyunun içində...

Səssiz-səmirsiz qaranlıqda...

Yalnız onun qəlb döyüntülərilə birlikdə bu nidalar eşidilir:

- Ey mehriban anam, hardasan?! Gəl mənim üz-gözümün torpağını yu. Ey əziz atam, hardasan?! Gəl dağınıq saçlarıma sığal çək...

Səmanın parlaq günəşi, ayı, ulduzları haradadır, onun zülmət zindanını aydınlatsın, Yusifin gözləri başqa gecələrdə olduğu kimi onları seyr etsin!



Tək-tənhadır və... və Yusif dodaqlarının altında həzin-həzin pıçıldayır:

"Ey mərhəmətli Allah!.."

Ümid edir ki, Allahın rəhməti ona yetişəcək.

Bir müddət beləcə cansıxıcı keçdi...

●

Qəfil yuxarıdan susuzluqdan dodaqları çatlamış, yol yorğunu olan karvanın camaatına su çəkmək üçün kəndirə bağlanmış bir dol[1] aşağı düşdü. Bu, Yusifin zərif bədəninin yerləşəcəyi qədər balaca bir dol idi!

1. Dol - keşmişdə quyudan su çəkmək üçün müxtəlif materiallardan hazırlanan su qabı.



Yusif öz-özünə səsləndi: "Ahh...
Bu mənə nicat verməyə gələn bir mələkdir!"

Bu elə bir anlardır ki, Yusif rəhimli olan Allahın rəhmini və nicatını heyrət içində öz gözlərilə görür!

●

Karvanın arasına bir hay-həşir düşür:

- Vay!.. Bir ona baxın!..

- Qabın içində su əvəzinə uşaq var!

- Bu uşaqdır, ya səmadan enən bir mələk?!

- Necə də bərəkətli bir quyudur! Gör necə bir sərvəti bizə havayı verdi!..

- Belə bir uşağa sahib olduğumuz üçün necə də xoşbəxtik!

**1. Cümləni tamamlayın**

- Mən düşünürəm ki, Yusif (ə) quyunun dibində Rəbbinə demişdir ki,..

**2. Cümlələri tamamlayın və dostlarınızla bölüşün**

- Bu dastanı eşidəndə mənə elə gəldi ki,..
- Düşünürəm ki, Yusif (ə) quyuda tənha olanda onun ümidli və arxayın olmasına səbəb o olmuşdur ki,..s ...

**3. Suala cavab verin və bu barədə dostlarınızla müzakirə aparın**

- Mən və dostlarım çətinliyə düşəndə necə arxayınlıq tapa bilərik?

3

# Bir olan!



Elə ki gecə olar, qaranlıqlar ətrafa çökər,
Elə ki ulduzlar sayrışar, gözlər yol çəkər,
Elə ki...
Sənə tapınarıq , Sənə taparıq!
**Hər vaxt...**
Hər vaxt səmanı və yeri,
Əzəmətli dağı, daşı,
Ya yaşıllıq bir tamaşa seyr etdikdə
Sənə şükranlıq edərik! Ey mehriban Rəbbim mənim!
Könül oxşar sərin mehin şəfqətinin nişanəsi,
Neysan yağış küləkləri rəhmətinin şəhadəti,
Sıldırım qayalar, silsilə dağlar, qaynayan bulaqlar, ümman dəryalar
Əzəmətli qüdrətinin nişanəsidir!
**Sənə şükür edirik!**
Şükür edirik ki, bəxş etdiklərin mərhəmətindən doğur,
Nemətlərin istisnasız hamı üçündür.
Sənə iman gətirmişik, Sənə yol axtarırıq,

Səndən yardım diləyirik,
Yalnız Sənə güvənirik!
**Sən ki...**
Dostluqda misilsizsən,
Mehrdə bənzərsizsən,
Səxavətdə vahidsən,
Lütfündə tayın yoxdur!
**Sən ki ...**
Xaliqisən yaranmışların,
Sahibisən yerin, asimanların,
Mənə hər kəsdən daha yaxınsan,
Dostlardan daha çox məni anırsan.
Ey mehriban olan Allah!
Hər şeyi görənsən, gözəlsən, gözəl!
Hər şeyə alimsən, bilənsən, bilən!
**Bir olan Allah!**
Yeganə və bənzəri olmayan Allah,

Mənim Allahım,

Sənə bax beləcə şükür edirik:

اَلْحَمْدُ لِلّٰهِ رَبِّ الْعالَمينَ

"Həmd aləmlərin Rəbbi Allaha məxsusdur."





**1. “Tövhid” surəsini oxuyun, sonra qarışıq verilmiş cümlələri nəzərdən keçirin və hansı cüm-lənin hansı ayənin tərcüməsi olduğunu qeyd edin**

بسم اللّه الرّحمن الرّحيم

قُل هُوَ اللّٰهُ اَحَد

اَللّٰهُ الصَّمَد

لَم يَلِد وَلَم يُولَد

وَلَم يَكُن لَهُ كُفُواً اَحَد

- Allah Möhtac deyildir.

Mərhəmətli, Rəhmli Allahın adı ilə!

O, nə doğmuş, nə doğulmuşdur,

De: “O Allah Təkdir!

Onun tayı-bərabəri də yoxdur”.

**2. Verilmiş qısa mətni oxuyun və mənasına diqqət edin:**

- Müsəlmanların əsas etiqad məsələlərindən biri də “Tövhid”dir. Tövhid Allahdan başqa heç bir ilahın olmamasına, Onun vahid olmasına iman gətirmək deməkdir..

4

## Mən Allahın bəndəsiyəm!

Zəkəriyyə peyğəmbər (ə) yavaş-yavaş həzrət Məryəmin (ə) ibadət etdiyi yerə yaxınlaşdı və onun ibadətlə məşğul olduğunu gördü. Qəfil gözləri orada olan yeyəcəklərə sataşdı və belə buyurdu:

- Qızım!.. Sən bu gün məbəddən kənara çıxmısanmı?
- Xeyr.
- Kimsə bura gəlib?
- Xeyr.
- Bəs... bu yeyəcəklər? Bunlar haradandır? Bu meyvələr haradandır? Axı bu meyvələr indiki fəsildə yetişmir?!
- Hər şeyə qadir olan Rəbbimin əmrilə bu hədiyyələr mənə səmadan göndərilir!

Bu imanlı qızın verdiyi cavab Peyğəmbəri (ə) göz yaşında boğdu.

İllər sonra Allah-taala həzrət Məryəmə (ə) bir oğlan uşağı bəxş etdi və onlar birlikdə Allaha ibadət etdilər. Onun körpəsi hələ beşikdə olanda belə deyirdi:





... اِنِّي عَبْدُ اللّهُ
ءاتانِيَ الْكتابَ وَ جَعَلَني نَبِيّاً ...

“Mən, həqiqətən, Allahın quluyam. O mənə kitab (İncil) verdi, özümü də peyğəmbər etdi”.

(Məryəm surəsi, 30-cu ayə)

"Rəbbim harada oluramsa olum, məni mübarək etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə etdi. Həmçinin anama qarşı yaxşı olmağı mənə əmr etdi".

Həmin körpə İsa Məsih (ə) idi. O, Allahın əzəmətli və böyük nişanələrindən idi. Elə ki gənc yaşlarına yetişdi, onun yaxşılıqları və mehribanlığı dillər əzbəri oldu.

O, Allahın böyük peyğəmbərlərindən biri idi. Allahdan əmr alaraq öz dəvətini etməyə başladı. Camaatı İlahi qanunlara əməl etməyə çağırdı:

- Ey camaat! Mən Allahın elçisiyəm. Mən sizə göndərilmişəm. Sizə məndən sonra gələcək bir peyğəmbərin müjdəsini verirəm. Onun adı Muhəmməd (s) olacaq.



Bütün bunlardan sonra düşmənlər yenə də təslim olmadı və onun əleyhinə səy göstərdilər.

Amma Allah onunla idi!

O, dostlarıyla birgə şəhər-şəhər, kənd-kənd gəzib Allahın buyurduqlarını insanlara çatdırırdı.

●

Artıq uzun bir zamandır ki, o bizlərin arasında deyil. Amma gün gəldikdə İmam Zamanın (ə) dostlarından olaraq yenidən qayıdacaq və İmamla (ə) birlikdə olacaq. İnsanları cəhalətdən və nadanlıqdan xilas edəcək.

**1. Dostlarınızın köməkliyi ilə verilən suala cavab verin**

- Həzrət Məryəm (ə) və Həzrət İsa (ə) necə insanlar olmuşlar?

**2. Cümləni tamamlayın**

- Biz müsəlmanlar Allahın peyğəmbərlərindən biri olan həzrət İsa Məsihi qəbul edirik, onun ardıcıllarına hörmət edirik. Ona görə ki**...**



5

# Biz bütpərəst idik...

- Eşitmisən?.. Qureyşin bütpərəstləri çoxlu hədiyyələrlə padşahın sarayına gəlib.

- Allah eləməsin, birdən padşahı razı salarlar, bizi də onlara qaytararlar?!

- Narahat olma, Allah bizimlədir!..

●

Əziz Peyğəmbərimizdən, ev-eşiyimizdən ayrı düşməyimizə baxmayaraq, Həbəşistanda rahatlıqla başımızı girləyirdik. Müşriklərin zülmündən amanda qalıb rahat Rəbbimizə ibadət edirdik. Amma onlar hələ bizim ətəyimizdən əl çəkmirdilər! Bizi məcburi olaraq geriyə qaytarmaq istəyirdilər. Bu gün də elə ona görə padşahın sarayına çağrılmışıq. Heç bilmirdik başımıza nə gələcək...

- Bax!.. Necə təmtəraqlı yığıncaqdır!



- Onlar padşahın yaxın adamlarıdır, saray əyyanlarıdır.

- Ah... Bir o tərəfə bax. Qureyşin nümayəndələridir... Necə də qəzəblidilər...

- Müşriklər bizi qaytarmaq üçün necə də hiyləgər adamlar seçib göndərib.

- Görəsən, padşaha və onun yaxınlarına hansı hədiyyələri gətiriblər?



Qureyşin göndərdiyi adamlardan biri şirin dilini işə salıb sözə başladı:

"Ey padşah!.. Bizim diyarın cavanlarından bir dəstəsi yeni dinə ibadət etməyə başlayıblar. Bu nə bizim dinimizdir, nə də sizin... Onlar vətənlərindən qaçıb sizin torpaqlarda yerləşiblər... Bizi öz böyüklərimiz göndərib ki, onları yenidən geriyə qaytaraq..."

Ortalığa dərin sükut çökdü. Bir qədər sonra padşah dedi:



“Sizin iman gətirdiyiniz din necə bir dindir?”

Padşahın bu sözlərini eşidən kimi hamının nəzərləri bizə tərəf yönəldi. Biz çox narahat idik, amma daxilimizdən gələn bir səs bizə elə hey deyirdi: “Allaha təvəkkül edin!” Elə bu fikirlərin ağuşunda olduğumuz bir anda Cəfər ibn Əbu Talibin səsi sükutu pozdu və bizi ruhlandırdı. Hamı sakit dayanıb onu dinləməyə başladı.

“Biz yolumuzu azmış bütpərəst bir camaat idik. Öz qonşularımızla pis rəftar edirdik, zəifləri incidirdik, xoşagəlməz işlər görürdük. Nəhayət, Allah bizim aramızdan Öz peyğəmbərini seçdi. Biz onu tanıdıq, onun düzlüyü, əmanətə sadiq olması və paklığı dillər əzbəri oldu. O bizə buyurdu ki, daşdan düzəldilmiş bütlərə pərəstiş etməyək. Bizi bir olan Allaha ibadət etməyə dəvət etdi. Düz danışmağa, əmanətlərə xəyanət etməməyə, qonşulara yaxşılıq etməyə çağırdı. Pis işlərdən uzad olmağa, qan tökməməyə, qətllər törətməməyə dəvət etdi. Zülm etməkdən və yetimlərin malını yeməkdən çəkindirdi.

Namaz qılmağı, oruc tutmağı və zəkat verməyi əmr etdi...”

Beləliklə, Cəfər İslamın mühüm şərtlərini Həbəşistan padşahına anlatdı və davam edərək buyurdu: “Biz Muhəmməd Əminə (s) iman gətirmişik və Allah tərəfindən ona verilənə inanmışıq. Bir olan Allaha ibadət edirik və bizə qadağan olunmuş işlərdən özümüzü qoruyuruq.

Bunun əvəzində Qureyşin böyükləri bizə əziyyət verdi.



Bizi yenidən bütlərə pərəstiş etməyə məcbur etmək istədilər. Biz də Peyğəmbərimizin (s) sözü ilə sizin diyara pənah gətirdik. Ümid etdik ki, bu diyarda sizin ədalətiniz sayəsində bizə zülm olunmaz”.

Cəfər ibn Əbu Talib bununla da sözünü bitirdi. Yenidən məclisə sükut çökdü. Hamı padşahın qərarını gözləyirdi. Qureyşin elçiləri hamıdan daha artıq narahatlıqla bu qərarı gözləyirdi. Amma biz qəribə bir rahatlıq hiss edirdik.

Gözlənilmədən Həbəşistan padşahı Nəcaşinin üzündə qəribə bir təbəssüm peyda oldu. Şövqlə üzünü Cəfər ibn Əbu Talibə tutub dedi: “Peyğəmbərinizin sizə öyrətdiklərindən heç yadınızda olan varmı?”

Cəfər “Məryəm” surəsini oxumağa başladı. Həzrət Məryəm (ə) barədə olan ayələri eşitdikdə ixtiyarsız olaraq bu imanlı padşahın gözündən yaş axmağa başladı və bu göz yaşları onun üzünü bürüdü. Digərləri də ona qoşulub ağladı.

•

Bir az keçdikdən sonra padşah Nəcaşi sükutu pozdu və üzünü bizə çevirib dedi:

“Sizin peyğəmbərinizin dedikləri ilə bizim peyğəmbərimiz İsa Məsihin (ə) gətirdikləri hamısı bir yerdən qaynaqlanır. Arxayın olun, Allaha and olsun ki, sizi onlara verməyəcəyəm!”



# Ən mehriban yolçu!

Mədinənin hər küçəsi, döngəsi
Bu gedən adamı yaxşı tanıyır!
Elə ki yetişir yol yolçusuna,
Üzündə təbəssüm halın arıyır!

●

Dolanır başına pərvanə kimi
Gül üzünü görcək dəcəl uşaqlar,
Qol-qanad açaraq ona sarılır
Qoynuna, boynuna əcəb uşaqlar!

●

Xəstə könüllərin təbibisən sən,
Çarə axtaranlar sənə yetişir!
Çöhrənin nurundan təmənna umub
Yaralı ürəklər dərhal bitişir!

●

Sözlərin günəştək hərarətlidir,
Könül evlərinə dəyanət verir,
Aləmlər içində gül qoxur adın,
Nəfəsin dəyən yer şəhadət verir![1]

1. Yuxarıda bəzi dəyişikliklərlə təqdim olunan şeir Məhəmməd Əziziyə (Nəsim) aiddir.

**1. Cəfər ibn Əbu Talibin nitqini bir daha oxuyun.** Sonra onun sözlərinə əsasən iş dəftərinizdəki cədvəli doldurun.

| İslamdan əvvəl | İslamdan sonra |
|---|---|
| Bütə sitayiş olunurdu | Vahid Allaha sitayiş olunurdu |

**2. Dostlarınızın iştirakı ilə sualı müzakirə edib cavablandırın**

- Nəyə görə padşah müsəlmanları bütpərəstlərə təhvil vermədi?

6

# Ertəsi gün səhər...

Uşaqlar həvəslə sinifdən çölə baxır. Müəllim deyir:
"Əgər səhərə kimi qar beləcə yağmağa davam etsə, köməkləşib birlikdə qar adamı düzəldərik!" Uşaqlar sevinclə bir ağızdan qışqırır: "Uraaa!!!"
Qar daha möhkəm yağmağa başlayır. Uşaqlar sevincdən atılıb-düşür. Zəng çalınır. Qərara alınır ki, sabah uşaqlar həyətdə qar adamı düzəltsinlər. Yusif xoşbəxtlikdən az qalır ki uçsun, çünki ona və dostuna qar adamının başını düzəltmək həvalə olunub!

●

Yusif səkiylə evə gedir; fikri, xəyalı sabah düzəldəcəyi qar adamının yanındadır: "Sabah necə də gözəl gün olacaq!"
O, evin yanında oynayan həyət uşaqlarını görür və elə oradaca qərarını verir: "Elə indicə mən də gəlirəm!"
Yusif naharını tələm-tələsik yeyir və bayıra yollanır. Anası qapıdan çıxanda ona səslənir:
- Yusif! Əynini qalın geyin!
- Hava elə də soyuq deyil ana.
- Dərslərini hazırlamayacaqsan bəs?..
- Tez qayıdacam...

●●

Yusif dostları ilə qartopu oynamağa gedir; o, oyundan başqa, bir şey haqqında düşünmür!
Yusif evə qayıdanda bədəninin titrədiyini hiss edir.

**Anası deyir: “Tez islanmış paltarlarını dəyiş!”**
**Əynini dəyişdikdən sonra televizora baxmağa başlayır. Qar da elə əvvəlki kimi yağmağında davam edir... Yusifin xəyalı hələ də sabah düzəldəcəkləri qar adamının yanındadır: “Can ay can!.. Sabah kef edəcəyik!”**







**O, şam yeməyini yedikdən sonra bərk yorulduğunu hiss edir, yatmaq istəyir. Qəfil yadına düşür: "Vaay... Riyaziyyatın məsələləri... Gərək həll edəydim..."**
**Amma canındakı yorğunluğu bir az da bərk hiss edir. Yenə yadına düşür: "Vaay... Gərək hələ sabah üçün çantamı da yığam..."**

●●●

**Yusif elə paltarlı halda mürgüləyir, həm də hiss edir ki, bədəni bir az istidir. Beləcə dərin yuxuya gedir.**

●●●●

**Ertəsi gün səhər...**

## Oxu üçün

İmam Əli (ə) buyurmuşdur:
"İnsan öz gününü üç hissəyə bölsə, yaxşı olar:
1. Allahla söhbət və dua etmək üçün;
2. Halal ruzi qazanmaq üçün;
3. Allahın xoşladığı kimi istirahət və gəzmək üçün".

("Ğurərul-hikəm", c. 1, səh. 130)

**1. Cavab verin**

- Ertəsi gün səhər nələrin baş verdiyini ehtimal edirsiz?
- Qabaqcadan belə düşünməyinizin səbəbi nədir?
- Yusif öz səhvlərini necə düzəldə bilər?

**2. Cümlələri tamamlayın**

- Zənnimcə, Yusif o vaxt nizam-intizamlı şagird ola bilər ki,..
- Həyatımızı (oyun, ibadət, dərs oxumaq və s) münasib proqrama salmaq üçün lazımdır:..

7

# Həyat yolunu göstərənlər

Bir zamanlar insanlar azğınlıqda idi, bir-birilə ədavət aparırdılar. Bütə tapınır və dünyanı Allahdan başqasının yaratdığını güman edirdilər. Mərhəmətli olan Allah-taala da Öz sözlərini insanlara çatdırmaq üçün yaxşıların içindən peyğəmbərlər seçdi. Allahın elçiləri isə İlahidən olan sözləri Onun bəndələrinə çatdırdı və həqiqət yolunu onlara göstərdi.

Allahın peyğəmbərləri aydın dəlillərlə və İlahi nişanələrlə camaatın görüşünə gəldilər. Onlara düzgün yaşamağın yollarını öyrətdilər. Bu elçilər insanları bir olan Allaha ibadət etməyə, düz danışmağa, yaxşı işlər görməyə, əmanətlərə xəyanət etməməyə və təmiz həyat sürməyə dəvət etdilər.

Tərəfdarlarının az, düşmənlərinin isə çox olması Allahın elçilərini ümidsiz etmədi və öz vəzifələrini yerinə yetirməkdən çəkindirə bilmədi.

•

Mərhəmətli Allah insanlara Peyğəmbər kimi bir nemət göndərməklə onları şərəfləndirdi. Onlara səmadan kitab nazil etdi ki, düz və haqq olan yolu tutsunlar. Sonda... Sonda öz sonuncu və ən kamil elçisini, yəni həzrət Muhəmmədi (Allahın salamı olsun ona!) tamamlanmış bir nemət olaraq insanlara təqdim etdi!

•

Həzrət Muhəmməd (s) seçilib göndərildi ki, özündən əvvəlki Allah elçilərinin işini sona çatdırsın, insanları yaxşılığa və səadətə dəvət etsin.



Həzrət Muhəmməd (s) əzəmətli və ləyaqətli bir nəslin nümayəndəsi olaraq dünyaya qədəm basdı. Uşaqlığında ən tərbiyəli uşaq, yetkin yaşlarında isə ən ləyaqətli bir şəxs oldu. Məhz buna görə o, insanların qəlbinin diqqətini çəkə bildi.

●

Onun sayəsində kin-küdurət aradan getdi. İntiqam alovları söndü. Allah Muhəmmədi (s) ona görə göndərdi ki, insanları haqqa dəvət etsin. O da öz növbəsində Allahın əmrlərini gecə-gündüz, yorulmadan insanlara çatdırdı. Allah yolunda öz düşmənlərilə usanmadan mübarizə apardı.

●

Muhəmməd (s) - imanlıların rəhbəri, səadət müjdəsi verən və sonuncu İlahi elçidir!



إِنَّ اللَّهَ وَ مَلائِكَتَهُ
يُصَلُّونَ عَلَى النَّبِيِّ
يَا أَيُّهَا الَّذِينَ ءامَنوا
صَلُّوا عَلَيْهِ وَ سَلِّمُوا
تَسْلِيمًا

"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salam göndərirlər. Ey iman gətirənlər! Siz də ona salam göndərib layiqincə salamlayın!"

(Əhzab surəsi, 56-cı ayə)

("Allahümmə səlli əla Muhəmmədin və ali Muhəmməd" - deyin!)

**1. Mətnə uyğun olaraq suala cavab verin:**

- Allah nəyə görə insanlara peyğəmbərlər göndərmişdir?

**2. Verilmiş ifadələri tamamlayın:**

- Həzrət Muhəmməd (s) "Aləmlərə rəhmət" adlandırılır, çünki...
- Peyğəmbərin (s) çəkdiyi zəhmətlərin qədrini bilmək üçün gərək...

**3. Düşünün:**

- Biz müsəlmanların etiqad əsaslarından biri də "Nübuvvət"dir. Nübuvvət o deməkdir ki, Allah insanların içindən ən yaxşılarını, ən xeyirxahlarını seçib digərlərini hidayət etmək üçün və İlahi əmrləri onlara öyrətmək üçün göndərmişdir.

8

# Bu kitab..!

**Elə bir kitab ki...**
**Nurla dolu şəfəq saçır aləmə!**
**Elə bir kitab ki...**
**İlahi nəfəslə hay verəcək naləmə!**
***
**Hər bir səhifəsində yeni bir öyüd,**
**Yenidən bizlərə bəxş edir həyat.**
**Sanki bəyaz kətan vərəqlər üstə**
**Fırçadan sıçrayıb hopub ruhiyyat.**
***
**Minlərlə müjdələr, ümidlər, nələr...**
**Könül səhifəsinə nurlaələnmiş,**
**Orada hamıya çatacaq qədər**
**Dünya xoşbəxtlikdən öz payın almış!**
***
**Ulduzu, günəşi, ayı, hər şeyi**
**Toplayıb bir yerə yığmış İlahi!**
**Səmanın rəngini, günəşi, ayı**
**Tən bölüb hamıya vermiş İlahi!**


Qurani
Məcid

## Quran biz müsəlmanların səmavi kitabıdır.

Quran mehriban Allah tərəfindən əziz Peyğəmbərimiz (s) vasitəsilə bizə, yəni insanlara göndərilmiş bir kitabdır.

Allah Quranda bizə yaşamağın qayda-qanununu öyrədir. Bütün İlahi əmrləri və əxlaqi fəzilətləri, məsələn namazı, orucu, xümsü, zəkatı, həcci, müdafiəni, sədəqəni, düzlüyü, mehribanlığı və sair əməlləri aydın şəkildə bizə bəyan edir.

Biz müsəlmanlar Quran oxuyuruq, onu layiqincə başa düşməyə can atırıq və əməldə tətbiq etməyə səy göstəririk.

1



قَدْ اَفْلَحَ الْمُؤْمِنُونَ الَّذِينَ هُمْ فِى
صَلاتِهِمْ خاشِعُونَ

"Həqiqətən, möminlər nicat tapmışlar! O kəslər ki, namazlarında mütidirlər"

(Muminin surəsi, 1-2-ci ayələr)

2



اَلَمْ تَرَ كَيْفَ فَعَلَ رَبُّكَ
بِاَصْحابِ الْفِيلِ

"Rəbbinin fil sahiblərinə nələr etdiyini görmədinmi?"

(Fil surəsi, 1-ci ayə)



و بِالْوالِدَينِ اِحْساناً وَبِذِى الْقُرْبى وَ
الْيَتامى وَ الْمَساكينِ

“Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara yaxşılıq edin!”

(Nisa surəsi, 36-cı ayə)



فَاقْرَءُوا مَا تَيَسَّرَ مِنَ الْقُرآنِ

“Elə isə Qurandan sizə asan olanı oxuyun”.

(Muzəmmil surəsi, 20-ci ayə)

**1. Mətni oxuyun.**

**2. Şəkillərə diqqət edin:**

- Şəkillərdən hər biri Quran ayələrinə uyğun olan mövzuları əks etdirir. Sizcə, hansı şəkil hansı mövzu ilə əlaqəlidir?
- Hər bir ayəni rəngli qələmlə uyğun olan şəkil ilə birləşdirin.

9

# Qardaşım, qayıt!



Şübhəsiz ki, bu zamanda ona Mədinədə yaşamaq çətin və cansıxıcı olacaqdı. Yadına uşaqlıq çağları düşdü. Allah Rəsulu (s) onu öz sinəsinin üstündə oturdar, öpüb, əzizləyib ağzına loxmasını qoyardı. Həmin günlərdə Allah Rəsulu (s) mehriban bir ata kimi onu qucağına alıb hər yana özü ilə gəzdirərdi.

O, uşaqlıq və yeniyetməlik çağlarını öz mehriban əmisi oğlu Muhəmmədin (s) yanında keçirmişdir. Danışığı, rəftarı, ədəb-ərkanı və sair xüsusiyyətləri ondan öyrənmişdir.

Bu ağır illərdə nə vaxt müharibə olardısa, onun yanında hazır olardı. Hələ bundan illərcə əvvəl Allah Rəsulu (s) öz yaxın qohumlarını evinə yığıb onları bir olan Allaha ibadət etməyə dəvət etdikdə, təkcə o, Peyğəmbərə (s) iman gətirmişdir. Həmin çağlar o, lap yeniyetmə idi.

Düşmənlərin cızdığı planla Peyğəmbərin (s) qətl olunması nəzərdə tutulan gecə Allah Rəsulunun (s) əmrilə yalnız o, Peyğəmbərin (s) yatağında həzrətin əvəzinə yatdı. O çağlar hələ cavan idi...

O, çox acı günlər gördü. Qılınc yaraları, dil yaraları. Evindən-ailəsindən ayrı düşdü, oğul-uşağından ayrı düşdü. Əzablı, yorğun, xəstəliklərlə dolu və tənha çağlar yaşadı. Amma... Bu ayrılıqlar onun üçün taqətini kəsəcək dərəcədə çətin idi.

O özü-özünə deyir: "Birinci dəfədir ki, müharibə zamanı Allah Rəsulunun (s) yanında deyiləm. Amma bu onun öz əmridir. Mən..."

Bu dəfə gərək Allah Rəsulunun (s) əmrinə əsasən Mədinədə qalsın.

Bəli, bu, Allah Rəsulunun (s) əmridir və qeyri-şərtsiz qəbul olunmalıdır!

- Əli... qardaşım... Mədinəyə qayıt!

Əli (ə) gözüyaşlı halda Peyğəmbərin (s) mehriban və gözəl üzünə baxır. Allah Rəsulu (s) ilə baxışları toqquşur. Peyğəmbər (s) Əlini qəmgin etmək istəmir və bir daha ona səslənir: "Mədinəyə qayıt... Çünki Mədinəni düşmənlərin hiyləsindən səndən və məndən başqa heç kim qorumağa layıq deyil!"

Əli (ə) sükut edir. Peyğəmbər (s) yenidən buyurur:

"Məgər istəmirsən ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun? Necə ki o Musanın canişini idi, sən də mənim canişinimsən!"

**1. Düşünün və dostlarınızın köməyilə suallara cavab verin**

- Müəllim vacib bir iş üçün səfərə getməyə məcbur olur. O, bir müddət dərsə gələ bilməyəcək, amma dərslər təxirə salınmır. Görəsən, müəllim aşağıda qeyd edəcəyimiz şəxslərdən hansını öz yerinə canişin olaraq təyin edəcək?

  O hansısa bir həkimi öz yerinə qoyub gedəcək?

  O hansısa bir mühəndisi öz yerinə qoyub gedəcək?

  O hansısa bir rəssamı öz yerinə qoyub gedəcək?

  O hansısa bir yaxşı oxuyan şagirdi öz yerinə qoyub gedəcək?

  Bunlardan hansı bizim müəllimimizi əvəz edə bilər?
- Müəllim öz yerinə onu əvəz edəcək bir çanişin təyin edəndə onun hansı xüsusiyyətlərini nəzərə almalıdır?

**2. Dostunuzdan xahiş edin ki, cümləni tamamlasın:**

Nəyə görə Peyğəmbər (s) həzrət Əlini (ə) öz canişini təyin etdi?

- Məncə...

# 10

# Peyğəmbərin mirası

Bu həcc ziyarəti həzrət Muhəmməd peyğəmbərin (s) iştirakı ilə baş tutan əzəmətli bir hadisə idi. Çoxlu sayda camaat bu ziyarətdə iştirak edirdi. Onlar bu həcc ziyarətini Peyğəmbərlə birgə yerinə yetirdiklərinə görə çox sevinirdilər...

İndi ziyarət mərasımı başa çatıb. Karvanlar bir-bir Məkkəni tərk edir. Peyğəmbərin (s) dostları onun ətrafına toplaşıblar. Onunla birgə olmağın ləzzətini yaşayırlar.

Gözlənilmədən Allahın mələyi Cəbrail nazil olur.

Bəli! Qayıdanbaş yolun yarısında Allahın vəhy mələyi yeni əmr gətirmişdir. .





İlahi ayələrdən növbəti biri Allah Rəsuluna (s) nazil[1] oldu:

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ وَإِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللَّهُ
يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Quranı) təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!" (Maidə surəsi, 67-ci ayə)

●

- Bu necə bir əmrdir ki, indi belə bir şəraitdə, səhranın düzündə Allahdan nazil olmuşdur?!

● ●

Həzrət Muhəmməd peyğəmbərin (s) yol yoldaşları bu yeni gələn vəhy barədə düşünürlər, öz-özlərinə deyirlər:

- Sözsüz ki, yeni xəbər çox mühüm xəbərdir!

Allah Rəsulu (s) təxirə salmadan bu xəbəri müsəlmanlara söyləyir və Allahın əmrini yerinə yetirir...

● ● ●

Deməli, bu hadisə belə olur: Allah Rəsulu (s) və onun səhabələri ziyarətdən sonra geriyə Mədinəyə dönürlər. Beləliklə, gəlib yolun yarısına - "Qədir[2] Xum" adlanan yerə yetişirlər. Bura Allahın həmin



1. Nazil olmaq - Allah tərəfindən göndərilmək.
2. Qədir - səhrada olan su hözvəsi və su quyuları.

mühüm xəbəri insanlara çatdırdığı yer olur. Karvanlar bir-bir gəlib "Gədir"in kənarına toplaşır və yüklərini yerə qoyub dincəlirlər. Nəhayət minlərlə insan oraya toplaşır və günorta namazını Peyğəmbərlə (s) birlikdə qılırlar... Dəvələrin palanından hündür kürsü düzəldilir. Allah Rəsulu (s) həmin hündür kürsüyə çıxıb öz sözünə başlayır. Sonra yüksək səslə camaata səslənir:

- Məgər mən sizin rəhbəriniz deyiləm?

Hamı bir ağızdan yerbəyerdən səslənir:

- Ey Allahın Rəsulu (s), siz bizim rəhbərimiz və əmr sahibimizsiz!

Belə olduqda Allah Rəsulu (s) Əli ibn Əbu Talibi yanına çağırır və əlindən tutub yuxarı qaldırır. Beləliklə, bütün camaat bunun şahidi olur və Allah Rəsulu (s) uca səslə deyir:

"Hər kimin rəhbəri mənəmsə, bu Əli də onun rəhbəridir! Ey Rəbbim! Onun dostlarına dost, düşmənlərinə düşmən ol! Ey Rəbbim! Onun dostlarına kömək ol, düşmənlərini isə xar et..."

Allah Rəsulu (s) kürsüdən enir. O, çox sevinclidir, çünki öz İlahi vəzifəsinin öhdəsindən məharətlə gəlmişdir!

Müsəlmanlar dəstə-dəstə gəlib Əlinin (ə), yəni müsəlmanların Peyğəmbərdən (s) sonra olan rəhbərinin əlini sıxıb təbrik edirlər. Onun şəninə tərif deyərək bu yolla öz razılıqlarını və İlahi əmrə tabe olduqlarını çatdırırlar. Onlar həzrət Əliyə (ə) beyyət[3] etdilər.





3. Beyyət etmək - Birinin hakimiyyətini qəbul edib ona tabe və sadiq olmaq.

# Qədir bayramı



Saat 8:00-dan 9:00-dək xorla himn oxumaq

Saat 10:00-dan 11:00-dək...

Məktəbimizin uşaqlarının əl işlərindən ibarət sərgiyə tamaşa

Saat 11:00-dan 12:00-dək ............

Saat 12:00-dan 13:00-dək:

Namaz, nahar, istirahət



Saat 13:00-dan 14:30-dək oyun



**1. Dərsin mətninə diqqət edin:**

Məsləhətləşərək dostlarınızın köməyilə cavab verin:

- Sizcə, Allah Rəsulunun (s) sonuncu həcc səfərində müsəlmanlara verdiyi mühüm xəbər nədən ibarət idi?
- Nəyə görə Qədir hadisəsi biz müsəlmanlar üçün bu qədər əhəmiyyətlidir?

**2. Cümləni tamamlayıb dostlarınıza oxuyun:**

- Qədir bayramı ...

**3. Tapşırıqları yerinə yetirin:**

- Şəkillərə diqqətlə baxın.
- Məktəbdə keçirilən Qədir bayramı proqramını oxuyun.
- Şəkilləri və Qədir bayramı proqramını bir-birilə müqayisə edin.
- Bayram proqramını istəyiniz üzrə tamamlayın.

11

# İsraf




**... Nəyi? Necə? Nəyə görə?**

**Bir düşün! Əgər bir sinifdə sadəcə beş nəfər Vahid kimi rəftar etsə, nələr baş verə bilər?!**

## Vahidin dəftərinin vərəqləri

1

Mən Vahidin dəftərinin ilk vərəqiyəm. O bizi təzəlikcə alıb. Mən və dostlarım sevinclə düşünürük:
“Kaş Vahid dəftəri son vərəqinə kimi gözəl xətlə yaza və bizi təmiz, səliqəli saxlaya!”



•



Nə yaxşı!.. Məsələ ondadır ki, Vahid ilk vərəqi hüsnü-xətlə yazır, ikinci vərəqi də bu şəkildə...
Biz birgə deyirik: “Allaha şükür olsun! O bizi gözəl saxlayacaq!”
Biz çox xoşbəxtik.

•

Mən Vahidin dəftərinin üçüncü vərəqiyəm. Vahidin bizim üzərimizdə nə yazacağı barədə fikirləşirdim, birdən ətürpədici səs gəldi!

Vay! Məni dördüncü vərəqlə birlikdə qopartdılar!

Biz dəhşət içində bir-birimizə baxdıq. Aman Allah! Görəsən, Vahid bizim başımıza nə oyun açacaq?!

Elə bu məqamda o, hər ikimizdən təyyarə düzəldib evin pəncərəsindən həyətə atdı. Bu an külək bizi möhkəm yerə çırpdı.



•

Beşinci vərəq də kağız pərə çevrildi.
Altıncı vərəq də...

•

Yeganə Tövhidi
("Təbiət uşaqları" sinifi), “22 Bəhmən” mədrəsəsi, Tehran.



**Hekayəni oxuyun və bu barədə düşünün: Allahın bəxş etdiyi nemətlərdən israf etmədən necə bəhrələnmək lazımdır?**

2

...Düzdür, özüm bir şey yaza bilmədim, amma bir neçə gün bundan əvvəl oxuduğum bir hekayəni sənə göndərirəm. Ümid edirəm ki, xoşuna gələcək.

### Dişlənmiş meyvələr



Xəcalət çəkərək gözlərini yarımçıq yeyilib yerə atılmış meyvələrə zilləyirlər. Nəvazişlə onları oxşayaraq deyir: “Mənim əzizlərim... Ola bilər siz doymusuz, könlünüz istəmir, amma başqaları bunlara möhtacdır”.

Onlar bir söz demədən baxışları ilə İmamdan (ə) üzr istəyirlər. Sonra bir-birlərinə deyirlər: “Gəlin gedək və qalan meyvələri toplayıb ehtiyacı olanlara paylayaq”.

İmam Rza (ə) təbəssümlə uşaqların qərarını alqışlayır, onlara “afərin!” deyir.

**Görəsən, Samirə də israf edir? Sən necə düşünürsən?**

3

## Samirə

Sinif yoldaşları əl işlərini düzəldirlər, amma o, çantası ilə oynayır. Dostları ağaclar və bitkilərlə bağlı mütaliə edir, amma o, lazımsız yerə öz rəngli karandaşlarını qələm yonanla yonur. Hamı işlə məşğul olduğu vaxtda o öz zamanını səmərəsiz keçirir.



Samirə dərs vaxtından səmərəli istifadə etmək istəmir; deyir ki, hövsələsi tükənib.

Allaha şükür olsun ki, bayram tətillərinə az qalıb, bəlkə azacıq istirahət ona sevinc gətirər.

•

Artıq Novruz bayramı tətili qurtarmaq üzrədir.

Samirə hövsələsiz halda ah çəkir və deyir: "Aman Allah, necə də çətindir!"

Anası deyir: "Sənin kifayət qədər vaxtın var idi, gərək fürsəti fövtə verməyəydin!"

- Bunların hamısı ev tapşırığıdı! ...Məgər vaxt az deyildi?
- İki həftə az müddət deyil!
- Onlar bizi istirahət etməyə qoymur!
- İstirahət, yoxsa vaxtı hədər etmək?!

Mən Samirə kimi deyiləm, amma onun kimi olsaydım, necə də pis olardı!

Sumeyra Rizai
"Furuğ Nur" mədrəsəsi.

4 **Vaxt qızıldır!**

Hamı deyir ki, vaxt qızıldır. Halbuki qızılı bazardan almaq olur, amma vaxtı heç yerdən almaq mümkün deyil. Elə buna görə də düşünmürük ki, vaxt keçirmək də israf etməyin bir növüdür. Belə ki, vaxtımızı hədərə veririk və ondan səmərəli istifadə etmirik.

Hüsam Əxtəri - Əmin Abidi
"Şəhid Rəcai" mədrəsəsi.

**Allah nə buyurur?**

وَلا'تُسْرِفُوا اِنَّهُو لا' يُحِبُّ الْمُسْرِفِينَ

5 "...lakin israf etməyin. (Allah) israf edənləri sevməz!"

(Ənam surəsi, ayə 141-ci ayə)



4

| Evdə | Məktəbdə | Oyun və gəzinti zamanı |
|---|---|---|
| | | |

5

| Bacararsız | Necə? |
|---|---|
| Siz gözəl əl işləri düzəldə bilərsiz. | |
| Siz (evdə, məktəbdə və s.) əl işlərinizdən ibarət bir sərgi təşkil edə bilərsiz. | |
| Siz yaşadığınız mühiti daha da gözəlləşdirə bilərsiz. | |
| Vaxtınızı bir çox yaxşı işlərə sərf edə bilərsiz... | |



**1. Siz də israf barədə bildiyiniz hekayələri dostlarınıza danışın.**

**2. İbarələri tamamlayın və dostlarınıza söyləyin:**

Nəyə görə israf etmək pisdir?

- İsraf... hədərə getməsinə səbəb olur.
- Allah...

**3. Dostlarınızın köməyilə cavab verin:**

İsrafdan necə qaçmaq olar?

- Su, çörək, kağız, yanacaq və bu kimi şeylərdən istifadə edərkən hansı qaydalara riayət etmək lazımdır?
- Düzgün məsrəf etmə nə deməkdir? Bu barədə nələri bilirsiz?
- Əlimizdə olan imkanlardan necə bəhrələnə bilərik?

**4. Cədvəli tamamlayın.**

- Evdə, məktəbdə, oyun və gəzinti zamanı düzgün məsrəf etmənin nümunələrini dostlarınız üçün qeyd edin.

**5. Cavab verin: .**

Hər vaxt nəyisə kənara atmaq istəsən, bir az səbir et, düşün və ...

Lazımsız əşyalardan necə səmərəli istifadə etmək olar?

12

# Taxta qayıq

Sevincli və gülərüz halda məktəbdən evə gəlir:

- Ana salam... Mən öz arzuma çatdım!

Anası təəccüblə ona baxıb deyir:

- Sənin nə arzun var idi?!

- Bax budur!

Beləcə, qırmızı rəngli taxtadan düzəldilmiş qayığı göstərir və ardından deyir:

- Bu gün bir az vaxt edib evə sahilin kənarı ilə qayıtdım. Bu taxta qayığı sahildə gördüm, su onu atıb-tuturdu.

- Maraqlıdır... Amma bu qayığın üztündə "Güllər məktəbi" yazılıb.

- Mən düşündüm ki, bu, qayığın adıdır.

- Bəlkə də bu qayıq "Güllər məktəbi"nin şagirdlərindən birinə məxsusdur.

Rza həmin axşam ancaq taxta qayıq haqqında düşünür; dərs oxuyarkən, yemək yeyərkən, hətta yatmağa gedərkən qayığı əlindən yerə qoymur. Sonra anasına "Ana, gecən xeyrə qalsın" deyib yatmağa gedir.

Bir az keçmişdi ki, yuxudan ayılıb ona təəccüblə baxan anasına deyir:

- Bu ad qayığın adı olsaydı, çox yaxşı olardı. Yox, əgər hansısa məktəbin adıdır... Bəlkə də bu, hansısa uşaqların əl işidir...



Yəqin indi qayıqlarını axtarırlar, nigarandırlar.

Anası təbəssüm edib deyir:

- Bəli, mən də elə düşünürəm!

- Eləysə, gərək mən qayığı onlara qaytarım.

Anası gülümsəyərək onun sözlərini təsdiqləyir.

Yuxuya getməmişdən əvvəl yenə anasına deyir: "Bəs mən bu qayığı onlara necə qaytara bilərəm?"



Həzrət Muhəmməd peyğəmbər (Allahın salamı ona və ailəsinə olsun) buyurur:

**"Müsəlman olan kəs başqasının malını ancaq onun icazəsilə götürə bilər".**



**1. İfadəni tamamlayın və dostlarınıza oxuyun:**

- Rza qayığı sahibinə qaytarmaq üçün gərək ...

**2. Cavab verin:**

- Əgər kimsə sizin kitablarınızdan və ya oyuncaqlarınızdan birini tapsa, siz ondan hansı hərəkəti gözləyərsiz?
- Nəyə görə bizim olmayan bir şeyi özümüzə götürə və ondan istifadə edə bilmərik?

**3. Düzgün cavabı tapmaq üçün dostunuzla müzakirə edin**

Başqalarına məxsus olan əşyalarla necə rəftar etməliyik:

- Dostlarımızın əşyalarını götürə bilərik;
- Əgər başqasının əşyasını götürsək və ondan istifadə etsək, haram iş (qadağan olunmuş bir iş) görmüş olarıq;
- Əgər bir şey tapsaq, onu özümüzə götürməliyik.
- Başqalarının elə də qiymətli olmayan əşyalarını götürmək günah deyil.
- Əgər arzuladığımız bir şey olsa, onu özümüzə götürə və sonradan sahibinə açıqlaya bilərik.

**4. Muhəmməd peyğəmbərin (s) kəlamını bir də oxuyun və üzərində düşünün.**

13



# Qiymətli daş



- Aman Allah!.. Mən nə edəcəm?!.. Niyə belə oldu?! Qiymətli daşın tən ikiyə bölünmüş hissələrini əlinə götürüb qüssəylə onlara baxır.

- Yox!.. Bunları düzəltmək mümkün olmayacaq... Artıq heç nə etmək olmaz! Həyəcan bütün bədənini bürüyür.

- Aman Rəbbim! Bu nə bəla idi mənim başıma gəldi?!. Kaş ehtiyatlı olardım...

- Bir az fikrə gedir, qəfil sıçrayıb ayağa durur, sevinclə deyir:

- Yalnız o mənim düşdüyüm çətinliyi həll edə bilər!

Beləcə yola düzəlir...





Artıq İmamın (ə) evinə gedən yoldadır. Özünə təskinlik verməyə çalışır:
- Təqsir məndə olmadı... O, tez parçalanan bir daş idi... amma... Amma kaş lap əvvəldən hakimə deyəydim.... Gərək çəkinməyəydim... Gərək onunla bu barədə şərt kəsəydim. Bunu İmama (ə) deməliyəm...

Çox keçmədi ki, o, yenidən qəm dəryasına batır və qorxu bütün vücudunu buyurur:
- Artıq iş işdən keçib. Yəqin mənə ağır bir cəza verəcəklər!.. Aman Allahım!..

Bu da İmamın (ə) evi...
Hələ də qorxudan bədəni titrəyir:



- Ey mənim ağam!.. Sizdən xahiş edirəm ki, mən öləndən sonra ailəmə sahib çıxasız, onlardan göz-qulaq olasız!

İmam (ə) təbəssümlə buyurur:

- Nə olub?.. Niyə bu qədər ümidsizsən?..

• • •

O, Samirə şəhərində yaşayır. Qonşusu da İmam Hadidir (ə). Sənəti zərgərlikdir, qiymətli daşların üzərinə müxtəlif yazılar həkk edir. İmamı (ə) sevən insanlardandır və baçardığı qədər onun qulluğunda durur.

- Bir müddət bundan əvvəl şəhərin hakimi qiymətli bir daşı ona verib üzərinə naxış həkk etməyi tapşırmışdır. Daş keyfiyətsiz olduğundan iş zamanı iki yerə parçalandı...

- Ey mənim ağam... Sabah gərək üzüyü şəhərin hakiminə qaytarım!

Gözləri yaşla dolur, səsi titrəməyə başlayır, qəm-qüssə içində sözünə davam edir:

- Yəqin, mənə min çubuq vuracaqlar... Məni döyüb öldürəcəklər...



İmam Hadi (ə) buyurur:
- Sakitləş!..
Evinə qayıt ...
Heç bir pis hadisə üz verməyəcək...
İmamın (ə) səmimi və eyni zamanda qəti sözləri onu özünə gətirir, ümidini artırır.

••••

Amma...
Sübh tezdən yenidən İmamın (ə) evinə gəlir.
Yenə də narahat və qəmlidir.
Hakimin qasidi üzüyü aparmağa gəlib.
- Narahat olma Yunis... Onunla get!
Başını aşağı salır, İmamın (ə) sözünün müqabilində bir söz demək istəmir. Amma qorxu və nigarançılıq hərəkətlərində özünü biruzə verir.
İmam (ə) sakit bir tərzdə buyurur:
- Yunis arxayın ol! Xeyirdən və yaxşılıqdan başqa bir şey görməyəcəksən!



Yunis yenə dilə gəlir:
- Mən ona nə deyəcəm?
- Sən yalnız onun dediyinə qulaq as!
Yunis gedir...

Artıq rahat danışır və qəmgin deyil!
Gözləri sevincdən parıldayır.
İmam (ə) soruşur:
- Yunis, nə oldu? Görürəm halın yaxşıdır, gümrahsan!
- Bəli, mənim ağam! Həqiqətən, xeyirdən və yaxşılıqdan başqa bir şey olmadı!.. Hakim məni görən kimi dedi ki, qızları həmin qiymətli daşın üstündə bir-birilə mübahisə edib. Məndən tələb etdi ki, daşı iki yerə bölüm və beləcə qızların mübahisəsi bitsin.
İmam Hadi (ə) Allaha şükür edir. Yunisin gözləri sevincdən yaşla dolur, qəlbi fərəhdən dağa dönür. İmama (ə) baxıb öz-özünə deyir...

## Oxu üçün

İmam Hadi (ə) Mədinə şəhərinin yaxınlığında olan bir kənddə dünyaya gəlmişdir. Onun adını Əli qoymuşlar, sonralar nəzərə çarpan gözəl xasiyyətlərinə görə ona Hadi, Nəqi və Əmin ləqəbləri verilmişdir. Onun şərəfli atası İmam Muhəmməd Təqi (ə), anası isə möhtərəm Səmanə xanım olmuşdur.
İmam Təqi (ə) və oğli İmam Hadi (ə) hələ cavan yaşlarından əmanətdar və müsəlmanlara düz yolu göstərən rəhbərlər olmuşlar. Sonralar da müsəlmanların əxlaqi yüksəlişi və hidayəti yolunda bir çox işlər görmüşlər. Bu fəaliyyətlər Abbasi xəlifəsi Mütəvəkkilin hakimiyyətə gəlməsinə qədər davam etmişdir. Mütəvəkkil də digər Abbasi xəlifələri kimi zalım biri olmuşdur. O, müsəlmanların oyanışından qorxurdu, düşünürdü ki, möminlər onun hakimiyyətini sarsıda bilər. Buna görə də müxtəlif bəhanələrlə İmam Hadini (ə) Mədinə şəhərindən o vaxt paytaxt olan Samirə şəhərinə gətizdirir. Burada onu öz nəzarəti altında saxlayır. Mütəvəkkil camaatın İmamla (ə) hər hansı əlaqə yaratmasına və görüşməsinə qadağa qoyur. Nəhayətdə müxtəlif bəhanələrlə onu şəhadətə çatdırır.

martyrdom.

**1. Mətni oxuduqdan sonra üzərində düşünün və cümləni tamamlayın:**

● Düşünürəm ki, hekayənin sonunda Yunis, İmama (ə) baxıb öz-özünə belə dedi:..

**2. Arzu edirsinizsə, "Oxu üçün" bölməsində yer alan mətni mütaliə edin və İmam Hadi (ə) barədə olan məlumatınızı artırın.**



14



Zindan rəisinin gözlərində qorxu var.
Abbasilərin adamlarından biri əsəbi halda ona deyir: "Biz şiələrin imamını həbs etmişik, onu sənə təhvil vermişik, amma sən heç ona əziyyət vermirsən!.. Niyə? Bunu necə izah edəcəksən?.."
Zindan rəisinin rəngi ağarıb, dodaqları quruyub, çətinliklə udqunur. Çətinliklə öz qorxusunu gizlədir. Əmr gözləyir.
Həmin adam ona tərs-tərs baxır, hədə-qorxu ilə deyir: "Ona daha artıq əziyyət verməlisən!.. Ona daha çox işgəncə verməlisən! Abbasilərin hiddəti qarşısında aciz qalıbdır!!!"



Zindan rəisi titrəyən səslə deyir:
- Mən... mən nə edim... Mən nə edə bilərəm?
- Nə edə bilərsən?! ... İstədiyin əziyyəti ona verə bilərsən!..
- Mən... onu zindanda işləyən iki ən kobud və bədəxlaq adama tapşırmışam, amma...
- Amma nə? Danış!
- Mən düşündüm ki, həmin iki nəfər Peyğəmbər övladına əziyyət verər, onunla pis rəftar edər. Amma...
- Amma nə?!
- Amma onların hər ikisi... Həsən ibn Əlinin (ə) tərəfdarı oldular. Nə vaxt baxsaq, ibadət edirlər.



- Nə deyirsən? ... Bu nə səfeh sözlərdir?! Tez həmin iki nəfəri bura gətizdir!
Zindan rəisi göstəriş verir ki, onları çağırsınlar.

•

Abbasilərin yüksək vəzifəli məmuru əsəbi halda həmin iki zindan işçisinin üstünə bağırır:
- Vay olsun sizə!.. Siz şiələrin imamı ilə necə rəftar edirsiz?! Ona işgəncə vermək əvəzinə özünüz dönüb onun tərəfdarına çevrilmisiz?!
Zindan işçilərindən birincisi təmkinlə deyir:
- Gündüzləri oruc tutan, gecələri sübhə kimi ibadətlə keçirən bir adama necə əziyyət verək?!
İkincisi deyir:
- Həsən ibn Əli (ə) çox imanlı adamdır. Onun ibadət etməkdən başqa bir işi yoxdur.
Birinci zindan işçisi yenidən dillənir:
- Baxışlarından mehribanlıq və rəhmət yağır. O elə hey bizə dua edir.
Abbasilərin məmuru olduqca qəzəbli və təlaşlıdır. Onlar zillət və xarlıq hiss edir. Hamısı başını aşağı salıb sükuta qərq olurlar. Hamı olduqca narahatdır...

## Oxu üçün

O, Rəbiüs-sani ayının səkkizi, cümə günü dünyaya gəlmişdir.

Atası - İmam Hadi (ə), anası isə möhtərəm Səlil xanım olmuşdur.

Dörd yaşında Abbasi hökumətinin təkidilə atası ilə birlikdə Samirə şəhərinə gəlmişdir. Orada "Əsgər" adlanan hərbi düşərgədə hökumətin nəzarəti altında yaşamışlar. Elə buna görə də onun ləqəbi "Əsgəri" olmuşdur.

İmam Əsgəri (ə) gənc yaşlarında atasını itirmişdir və bundan sonra müsəlmanların İmamı olmaq onun öhdəsinə düşürdü.

Bu məsuliyyətli işə başlayanda hələ də hökumətin ciddi nəzarəti altında idi. Amma buna baxmayaraq, bəzi dostları məxfi şəkildə onunla əlaqə yarada bilir və dərin elmindən bəhrələnirdilər.

Çox keçmədən onun elmi, kamalı və əxlaqi keyfiyyətləri barədə xəbərlər bütün İslam dünyasına yayılır və camaat heyranlıqla dörd bir tərəfdən onun evinə, görüşünə gəlirdi.

İmamın (ə) nüfuzu və şöhrəti hakimiyyətdə olan xəlifənin ziyanına idi. Bu səbəbdən onu həbs edib zindana saldırır və bu yolla camaatdan uzaqlaşdırmağa çalışır...

İmam Əsgəri (ə) bir müddət əziyyətli zindan həyatından sonra azadlığa çıxır. Amma camaatla aşkarda əlaqə saxlamasına məhdudiyyət qoyulur. Bu səbəbdən, suallara cavab vermək və bir çox məsələləri həll etmək üçün öz nümayəndələrini təyin edir. Hər kimin sualı və hər hansı çətinliyi olurdusa, İmamın (ə) nümayəndələrindən birilə əlaqə saxlayır, onların vasitəsilə öz sualına cavab alırdı.

İmam Həsən Əsgəri (ə) bir müddət belə şəraitdə yaşadıqdan sonra hicri-qəməri təqvimi ilə Rəbiul-əvvəl ayının 8-i, 260-cı ildə Abbasilərin məkrli hiylələri nəticəsində şəhadətə çatır...

**1. Dostlarınızla birlikdə mütaliə edin və dərsin mətnindən çıxış edərək suallara cavab verin:**

- İmam Həsən Əsgəri (ə) nə etdi ki, zindandakılar ona heyran oldu?.......................................
.............................................

- Bu sualın üzərində düşünün: Görəsən, Abbasilər nəyə görə İmam Həsən Əsgərinin (ə) rəftarının camaata təsir edə biləcəyindən təşvişə düşürdü?
.............................................
.......................................

**2. Dostlarınızla birlikdə mətn üçün münasib bir ad seçin.**

**3. Arzu edirsinizsə, "Oxu üçün" bölməsindəki mətni mütaliə edin və İmam Həsən Əsgəri (ə) barədə olan məlumatınızı artırın**




# Dostla əl-ələ

Qürub çağı əsrarəngizdir.
Göy üzü tam başqa bir hal olub.
Quşlar artıq öz yuvalarına üz tutub.
Gündüzün aydınlığı yavaş-yavaş öz şuxluğunu itirməkdədir.
Güman ki yolda qəribəliklər olacaq.
Gecə heyrətamizdir,
Məndə qəribə hisslər yaradır.
Ata süvar olub Seyyidül-şühədanin  (ə) hərəminə tərəf gedirəm.
Tənhalıq,
Zülmət gecə,
Lal bir sükut.
Sərin bir meh əsir,
Qəribə bir haldayam.
Sanki kimsə məni özünə cəzb edir.
Görən qarşıda hansı mühüm hadisə baş verib?
Bu zülmətdə mənim yeganə həmdəmim küləyin xəfif səsidir.
Amma mən aramla, səssiz öz qəlbimdə zikr edirəm:
Allahu əkbər, Allahu əkbər...
Əlhəmdu-lillah, əlhəmdu-lillah...



Sübhan Allah, Sübhan Allah...
Bir qədər kənardan gələn səs diqqətimi cəlb edir.
Qulaqlarım küləyin ixtiyarındadır,
Sanki kiminsə hənirtisi, yaxud ayaq səsidir.
Tədricən yaxınlaşır,
Yaxınlaşır, daha da yaxın,
Vüqarla,
Ağır-ağır,
Artıq bir şey qalmayıb, üzünü görə bilirəm.
Cüssəli, boylu-buxunlu, xoşsimalı, sevimli.
Onun gözəl və ruhani üzünü görmək, həmçinin xoş təbəssümünü seyr etmək qəlbimə qəribə rahatlıq bəxş edir.
Nə deyəcəyimi bilmirəm, onun əzəmətini canlandıran bir söz tapa bilmirəm!
Salam verirəm, məni öz adımla çağırıb deyir: "Şeyx Həsən Hilli, bu cümə axşamı hara gedəcəksən?"
Aman Allah, o kimdir?!
Mənim adımı haradan bilir?!
Gecənin bu aləmində mənimlə nə işi var?!
Əzəmətli görünüşü adını belə soruşmağa mane olur.
Deyirəm: "Ağam İmam Hüseyni (ə) ziyarət etmək üçün hərəmə gedirəm!"

Bir söz demir, amma baxışları bu işimdən razı qaldığını diktə edir.

Aramıza mənalı bir dərin sükut çökür.

Yan-yana hərəmə doğru irəliləyirik.

Diqqətlə hərəkətlərini və rəftarını izləyirəm.

Halım dəyişir,

Bu halı izah etmək üçün nə deyəcəyimi və nə edəcəyimi bilmirəm.

Ara-sıra aramızda yığcam və dəqiq cümlələrlə söhbət baş tutur.

Bilsəniz, bu söhbətin uzanmasını necə də arzu edirəm!

Ona bəzi suallar verirəm.

Suallarıma asanlıqla, təəccüblü də olsa, bir-bir, qısa və dəqiq cavablar verir.

Hiss edirəm ki, ağıllı-kamallı bir insanla qarşılaşmışam. Bu fürsəti özüm üçün qənimət bilirəm. Daim məni düşündürən və cavab tapmaqda çətinlik çəkdiyim suallarımı ona ünvanlayıram.

Ard-arda caladığım suallarım qarşısında aydın cavablar eşidirəm. Növbəti sualı soruşuram və mənə elə gəlir ki, verilən cavabın sənədi ilə hədis kitablarında qarşılaşmamışam.



Mehribanlıqla mənə deyir: "Evə qayıtdıqdan sonra filan kitabı aç, filan səhifədə filan sətirləri oxu..."

Qəfil diksinib özümə gəlirəm və öz-özümə deyirəm: "Bəlkə də mənimlə birgə olan bu məlumatlı və alim adam əziz ağam İmam Zamanın (ə) özüdür?!!"

Fikrimə aydınlıq gətirmək üçün soruşuram: "Mən həzrət İmam Zamanı (ə) görə bilərəm, ya yox?"

Bu zaman mənə yaxınlaşır və əlini əlimin üstünə qoyur. Sonra bu unudulmaz sözləri dilə gətirir: "İmam Zamanı necə görməyə bilərsən?! Axı onun əli sənin əlindədir!"

Bu sözləri eşidəndə həyacandan və heyrətdən qəşş edib yerə düşürəm...

Elə ki özümə gəlirəm, həyəcanla ətrafa nəzər salıram, bəlkə onun gözəl üzünü yenə görə bildim! Donub qalmışam, əllərimi üzümə sürtürəm və ətrafıma bir də nəzər salıram. Amma heç kim yoxdur...

Təəssüf ki, o getmişdir.

Yağan yağış da bir tərəfdən göz yaşlarıma aman belə vermir, yuyub aparır.

Beləcə yenə həsrəti içində qaldım, yenidən görüşmək həsrəti.

Onun çöhrəsini bir an olsun unutmayacağam!

**1. Mətni oxuduqdan sonra üzərində düşünün və aşağıdakı ifadəni tamamlayın**

Mən düşünürəm ki, Əllamə Hilli İmam zamanla (ə) görüşdüyünü bildikdən sonra Allaha dua edir və Ondan istəyir ki,..

**2. Düşünün və dostlarınızla məsləhətləşəndən sonra cavab verin:** Nəyə görə Əllamə Hilliyə İmam Zamanla (ə) görüşmək səadəti nəsib olmuşdur? Görəsən, biz də İmamı (ə) görə bilərikmi? Bunun üçün nə etmək lazımdır?

## Oxu üçün

Hicri qəməri 648-ci ildə, Ramazan ayının 29-u gecə vaxtı möhtərəm bir ailədə Həsən adlı oğlan uşağı dünyaya gəldi. Onun atası İraqın Hillə şəhərinin tanınmış alimlərindən idi. Həsən hələ uşaq yaşlarında Quranı və yazıb-oxumağı öyrəndikdən sonra böyük elmə aparan başlanğıc dərslərini öz atasının yanında oxuyur. Elə həmin uşaqlıq çağlarında qazandığı elmi biliklərə görə "Camaləddin" (Dinin zinəti) ləqəbi ilə məşhurlaşır. Beləliklə, böyük alimlərdən dərs alaraq nəhayətdə ali məqamlara ucalır və Əllamə Hilli olaraq tanınır. Alimlərdən biri onun barəsində belə deyir: "Əllamə Hillinin nə özündən əvvəl, nə də özündən sonra tayı-bərabəri yoxdur!"

O, iyirmi səkkiz yaşında olarkən şiələrin rəhbəri seçilir. Əllamə Hilli hicri-qəməri təqvimilə 726-cı ilin Məhərrəm ayının 21-də fani dünya ilə vidalaşır. İraqın Nəcəf şəhərində həzrət Əlinin (ə) hərəmində dəfn edilir.



16

# Son yarpaqlar

Bu yüksəklikdən meşənin qurtaracağı görünür.

Buradan insana elə gəlir ki, ağaclar göyə ucalmaq istəyir, qara bürünmüş ağaclar ucsuz-bucaqsız meşənin genişliyində yaşıl xətlər kimi görünür.

Necə də könül oxşayır!..

•

Meşənin başlanğıcında cavan bir ağac görürəm.

Onu tanıyıram.

Budaqlarındakı son yarpaqları qorumağa çalışır, amma bacarmır!

Bu onun ilk qışıdır.

Qar dənələri bir-bir onun budaqlarına qonur və tökülmüş yarpaqların yerini doldurur.

Cavan ağac yavaş-yavaş dərin yuxuya qərq olur. Elə dərin yuxuya gedir ki, əziz dostu olan külək gəldikdə belə, ona "Xoş gəldin" deyə



bilmir.

Mən bu mənzərəyə heyran qalmışam.

Külək şən gülüşü ilə mənə sarı gəlir və deyir: "Salam, köçəri quş!.. Uzaq yoldan gəlmisən?"

Deyirəm: "Bəli,.. lap uzaqlardan gəlirəm, cənuba sarı gedirəm. Bu cavan ağacı görmək üçün yolumu buradan saldım. Yayda onunla tanış olmuşdum".

Külək həmin ağaca baxıb deyir: "Mehriban ağacdır... Amma artıq yuxuya gedib".

Deyirəm: "Mışıl-mışıl... körpə kimi..."

Külək deyir: "Meşə əhvalatları ona çox ləzzət etdi. Mən də ona dəfələrlə bu barədə danışmışam..."

Deyirəm: "Çox şən bir ağacdır".

Külək deyir: "Dəfələrlə mənə deyirdi ki, gün gələcək yaşıl yarpaqları töküləcək, quşlar budaqlardan uçub gedəcək. Yaman nigaran idi.



Amma mən ona qocaman ağacların əhvalatlarını danışdım”.

Külək bir az da yaxınıma gəlir, ətrafımda dövrə vurub deyir: "Hələ lap kiçik olanda ona bir əhvalat danışdım, qocaman bir ağacın əhvalatını. O illərlə qışın sərt şaxtalarını görmüşdü. Yenə də hər dəfə bahar gələndə yeni çiçəklər, daha çox və daha yaxşı meyvələr gətirərdi. İndi də çoxlu quşların ona pənah gətirdiyi bir ağacdır. Bunu eşidəndə onun gözləri parladı və həmin qocaman ağac kimi olmaq arzusuna düşdü".

Külək davam edərək deyir: “Ona dedim ki, bəzi ağaclar hələ cavan olanda özləri üçün azuqə yığır, dərinə kök atır... Ona görə də baharda çoxlu bar gətirir, yarpaqlayır, şaxələnərək ətrafına kölgə salır. Öz dostları ilə meşələrdə, bağlarda şad-xürrəm həyat sürür. Amma azuqə toplamayan tənbəl ağaclar baharda yarpaqsız və barsız qalır”.

Külək həmin cavan ağacın boy-buxununa baxıb deyir:

“O belə yarpaqsız və barsız qalmaqdan qorxurdu. Buna görə mənim sözlərimə qulaq asdı, azuqə topladı və daha dərinlərə kök atdı”.



Gözlərimi ağacdan çəkib küləklə sağollaşıram.

Elə ki pərvaz edirəm, ucadan söyləyirəm: "Mən baharda ağacın yarpaqlarını və barını görmək üçün yenə qayıdacam!"

**1. Düşünün və ifadəni tamamlayın:**

- Cavan ağac indi yuxudadır, amma oyananda...
- Baharda barlı və yarpaqlı olmaq istəyən ağac gərək...

**2. Siz necə düşünürsüz?**
Fikirləşin və cavab verin.
Bu barədə dostlarınızla müzakirə edin.

- Necə düşünürsüz, bizim də həyatımızın baharda bərəkətli olması üçün nə etmək lazımdır?
- Kimlər hekayəmizdə olan bu ağac kimi yuxuya getsə, oyandıqdan və yenidən dirildikdən sonra yenə də gözəl və bərəkətli olar?

17

# Bir tətil günü

Bir tətil günüdür. Mən atamla dağa gəlmişik.
Dağları çox sevirəm, vaxtaşırı buraya gəlirəm. Fərəhlənirəm, çox sevinirəm.

Atam da, mən də sakit dayanmışıq.
Mən ətrafıma nəzər salıram... Biz necə də yüksəkdəyik!
Bir az sıldırımda otururam.
Buradan hər şey oyuncaqlar kimi kiçik görsənir.
Hündür mərtəbəli binalar, sanki bir parça qəndə bənzəyir. Xəyal aləmində barmağımla onların yerini dəyişirəm.
Atam deyir: “Nə edirsən?”
Görürəm ki, təəccüblə mənə baxır.
Deyirəm: “Atacan, bax, şəhərin binaları necə də kiçikdir!”
Atam deyir: “Buradan hər şey kiçik görsənir, elə dağın xüsusiyyəti də budur!”
Deyirəm: “Hansı xüsusiyyəti?”



Atam deyir: "Bizim yadımıza salır ki, dünyamız bizim düşündüyümüzdən də geniş və əzəmətlidir".

Hiss edirəm ki, atama çoxdandır məni narahat edən sualı verməyin əsl vaxtıdır.

Ona baxıb deyirəm: "Atacan, doğrudan da insan öləndən sonra nə olur?!"

Verdiyim sualdan çox təəccüblənir: "Bu sual haradan ağlına gəldi?!"

Deyirəm: "Düzü bir neçə gün əvvəl anamla sizin şəkil albomunuza baxırdıq. Orada Mahmud əmi ilə sənin dağda olan şəklini gördüm. Ata, siz Mahmud əmi ilə tez-tez dağa gəlirdiz?"



Atam deyir: “Bəli... Allah xeyir eləsin... Mahmud dağları çox sevərdi”.
Deyirəm: “Ata ... Kaş mən də əmimi görmüş olaydım!”
Atam deyir: “Müharibədən artıq xeyli müddət keçib, amma Mahmud və digər şəhidlər həmişə bizim yadımızda qalacaq!”
Deyirəm: “Atacan... Elə ona görə soruşuram, ölümdən sonra nələr olur?”
Atam israr etdiyimi görüb mənə cavab verir:
“Bütün canlılar bir gün dünyaya gəldiyi kimi bir gün də dünyadan köçür... Biz hamımız dünyadan köçdükdən sonra bir gün yenidən dirildiləcəyik və öz əbədi həyatımıza davam edəcəyik. Həmin gün hamı öz yaxşı və pis əməllərinə görə cavab verəcək. Yaxşı əməllərimizə görə bizə mükafat, pis əməllərimizə görə isə bizə cəza veriləcək”.
Deyirəm: “Qiyamət gününü nəzərdə tutursan?”
Atam deyir: “Bəli, Qiyamət gününü... Qiyamət insanların yenidən dirilişinin başlanğıcıdır... O gün insanlar Allahın əmrilə diriləcəklər.



... Baharda torpağın yenidən dirildiyi və yaşıllaşdığı kimi".

Atam ah çəkir, yenidən sözə başlayır: "Dünyada Mahmud kimi yaşayanların xoş halına! Bu dünyada ancaq yaxşılıqlar və xeyirxahlıq etdi. Sözsüz ki, axirətdə də Allahın nemətlərinə sahib olacaq".

Atam sonra deyir: "Yolumuza davam etməyimizi istəyirsənmi?"

O, özünəməxsuz tərzdə gülümsəyir.

Yolumuza davam edirik, yenə aramıza sükut çöküb...

•

Səmaya baxıram, ona çox yaxınlaşmışıq! Mən onu çox sevirəm!!!



**1. Bu ayəyə diqqət edin və üzərində düşünün:**

وَالآخِرَةُ خَيْرٌ وَاَبْقى

..."...Halbuki axirət daha xeyirli və daha baqidir". ("Əla" surəsi, 18-ci ayə)

**2. İfadəni tamamlayın:**

- Biz müsəlmanların əqidə əsaslarından biri də Məaddır. Məad, yəni...

18

# Mən inanıram ki,..

Çox imanlı, alim bir şəxs olan həzrət Abduləzim Həsəni, İmam Həsən Müctəbanın (ə) nəvələrindən biri idi.

Həzrət Abduləzim həmçinin İmam Cavadın (ə), İmam Hadinin (ə) tələbələrindən və köməkçilərindən biri idi. Onun İmam Hadi (ə) ilə dini etiqad barədə olan söhbəti olduqca maraqlıdır.

Gəlin bu söhbəti onun öz dilindən öyrənək:

"Günlərin bir günü İmam Hadinin (ə) hüzuruna gəldim və dedim: "Ey Allah Rəsulunun övladı! Mən öz dini etiqadımı sizin hüzurunuzda dilə gətirmək və sizin qiymət verməniz... və səhvlərimi düzəltməyinizi istəyirəm".



İmam (ə) mənim danışmağıma icazə verdi. Beləliklə, sözümə başlayıb dedim:

"Mən etiqad edirəm ki, Allah-taala birdir və Onun bənzəri yoxdur. O - hər bir yaradılmışın sahibidir.

Mən etiqad edirəm ki, həzrət Muhəmməd (Allahın salamı ona və ailəsinə olsun) Allahın bəndəsi və elçisidir. O - sonuncu peyğəmbərdir və onun dini, yəni İslam dini sonuncu səmavi dindir.

Mən etiqad edirəm ki, möminlərin əmiri Əli (Allahın salamı ona olsun) Allah Rəsulunun (s) canişini və müsəlmanların Peyğəmbərdən sonra olan rəhbəridir. Ondan sonra həzrət İmam Həsən (ə), sonra həzrət İmam Hüseyn (ə) və onun övladları haqq olan İmamlar və camaata düz yolu göstərənlərdir". Sonra İmam Hüseynin (ə) övladlarının bir-bir adını dilə gətirdim, yəni İmam Səccadın (ə), İmam Baqirin (ə), İmam Sadiqin (ə), İmam Kazimin (ə), İmam Rzanın (ə) adlarını çəkdim. Dedim: "İmam Rzadan (ə) sonra sizin şərəfli atanız İmam Muhəmməd Təqi (ə) müsəlmanların imamıdır. Daha sonra isə siz bizim İmamımızsız".

Bu zaman İmam Hadi (ə) mənə buyurdu:

"Məndən sonra oğlum Həsən sizin imamınızdır, ondan sonra isə Mehdidir (ə). Mehdi (ə) elə bir imamdır ki, öz qiyamı ilə yer üzünü ədalətlə dolduracaq!"

Dedim: "Mən Həsən Əsgərinin (ə) və onun oğlunun imamlığına iman gətirirəm.

Və deyirəm: "Onların dostları Allahın dostları, onların düşmənləri isə Allahın düşmənləridir".

Daha sonra dedim: "Mən etiqad edirəm ki, Qiyamət günü biz hamımız yenidən diriləcəyik və bundan sonra əbədi yaşayacayıq. Mən deyirəm



ki, namaz dinin sütunu olduğu kimi Vilayət[1] də mənim etiqadımın bir hissəsidir. Sonra: zəkat, oruc, həcc, müdafiə, yaxşılıqlara dəvət və pisliklərdən çəkindirməkdir".

Bu yerdə həzrət Hadi (ə) mənə buyurdu: "Əbulqasim, Allaha and olsun ki, Allahın dini elə budur! Çalış bu etiqadında sabit qal!"

1. Vilayət - kamil şəkildə Allaha, Onun Rəsuluna (s) məsum İmamlara (ə) itaət etmək və onları sevmək.

**1. Müəllimin köməyilə cədvəli doldurun:**  

| Mən inanıram | |
|---|---|
| **Tövhid** | Böyük Allah... |
| ............. | Ədalətlidir |
| **Nübuvvət** | ............... |
| **İmamət** | ............... |
| **Məad** | Qiyamət günü... |




# Sirli bağ

Artıq yay gəlib...

Bir neçə uşaq evlərindən uzaq düşüb sərgüzəşt axtarışına yollanıb.

Onlar yarpaqların arasında gizlənmiş qapının kiçik dəliyindən içəri nəzər salırlar.

Təəccüblə bir-birlərinə baxırlar. Sanki soruşmaq istəyirlər: "Bu qapı hansı tərəfə açılır?.."

Səylə qapını açmağa çalışırlar.

Mehdi və Hadi oynadıqları oyunu yarımçıq saxlayıb onlara tamaşa edir.

Uşaqlar qollarına güc veriblər, nəhayət, qapı cırıldayaraq açılır!

Hadi qabağa gələrək onlara deyir: "Uşaqlar, bu bağa girmək qadağandır!"

Amma onlar Hadiyə əhəmiyyət  vermədən bağa daxil olurlar.

Mehdi deyir: "Uşaqlar, bağ sahibinin izni olmadan oraya daxil olmaq olmaz!"

Onlar yenə də əhəmiyyət vermir...

Bura balaca bir bağdır.

Bir az hündür çəpəri var, tən ortada su ilə dolu balaca hovuz da var.

Bağda heç kəs yoxdur.

Mehdi yenə bağın çölündən onlara səslənib deyir: "Siz bu bağda oynamaq üçün icazə almamısız... Bura başqasının ərazisidir!"

Amma uşaqlar yenə də öz işlərindədir.

Mehdi ilə Hadi təəccüblə bir-birinə baxıb deyirlər: "Onlar bizə qulaq asmır, onları necə öz xətalarından daşındıraq?.."



Uşaqlar bağın bir küncündən velosiped tapırlar. Bir az nasazdır, amma sürmək olar.

Bir az kənarda iri oturacaq var, yanında da əncir ağacı bitib. Bütün bağ otla örtülüdür. Güllərin ətri ətrafı bürüyüb. Qırmızı, sarı güllər...

Uşaqlar sevinclə qışqırışırlar: "Ay can, ay can! Bura oynamaq üçün əla yerdir!"

Əncir yeməyə başlayırlar, çoxlu gül dərirlər. Sonra bir neçə nəfər velosipedə oturub tələsə-tələsə bağı dolanmağa başlayır. Qışqırışırlar: "Bu bağ bizimdir... bizim sirli bağımız..." Gözlənilmədən..!

Bağ sahibi qaşlarını çataraq uşaqlara baxır.

Onlar ağrıdan bir-birlərinə sarılıblar.

**1. Sizcə, uşaqların başına nə gəldi? Öz fikirlərinizi yazın və sonra dostlarınıza oxuyun**

**2. Düşünün və cavab verin:**

- Hadi və Mehdi nəyə görə uşaqları xəbərdar etməyə çalışırdılar?
- Hadi və Mehdinin xəbərdarlıq etməsinin uşaqlara nə faydası oldu?
- Hadi və Mehdi uşaqlara xəbərdarlıq etməkdən başqa hansı işləri görə bilərdilər?
- Dinimizdə Hadi və Mehdinin etdiyi əmələ nə deyilir?

**3. Aşağıdakı ifadələrdən istifadə edərək ayənin mənasını tamamlayın:**

Xeyirli – yaxşılığa – başqalarını – pis əməlləri

وَلْتَكُنْ مِنْكُمْ اُمَّةٌ يَدْعُونَ اِلَى
الْخَيْرِ وَ يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَ
يَنْهَوْنَ عَنِ الْمُنْكَرِ

"(Ey müsəlmanlar!) İçərinizdə (.......) ....... çağıran, ....... işlər görməyi əmr edən və ......... qadağan edən bir camaat olsun!"

("Ali İmran" surəsi, 104-cü ayə)

20

# Əvəz çıxmaq





Hadisə belə oldu. Məktəbin pəncərəsinin şüşəsi naməlum şəkildə sındırıldı. Bundan sonra müxtəlif söz-söhbətlər, pıçhapıçlar yayılmağa başladı. Hətta bəziləri digərlərini günahlandırmağa çalışdı. Söz-söhbət gəzirdi ki, bu, Fəridin işidir. Elə mən də buna inanırdım.

•

Həmin gün Əli narahatlıqla dedi: "Düzünü de... Sən bunu kimdən eşitmisən?"



Dedim: "Hamı danışır...hamı!"

Dedi: "Uşaqlardan kim öz gözü ilə görüb?"

Dedim: "Sözsüz ki, kimsə görüb... uşaqlar dəlilsiz danışmaz. İnanmırsansa, Salehin yanına gedək. Mənə elə bunları Saleh danışıb".

••

Danışmaq istədikdə Əli qolumu möhkəm sıxdı və acıqlı halda dedi:

"Sən heç nə danışma... Səbir et, görək Saleh nə deyəcək!"

Saleh duruxa-duruxa dedi: "Mən... mən



bundan artıq bilmirəm. Amma Əmirdən eşitdim ki, bu sinifin şüşəsini Fərid sındırıb".

Əli öz əlini ikimizin də çiyninə qoyub qınaq dolu bir səslə dedi: "Ay mənim dostlarım... Siz bilmədiyiniz bir şeyi necə danışa bilərsiz?!"

● ● ●

Əli bütün bu olub-keçənlərdən və xüsusilə mənim danışdıqlarımdan narahat idi. Mən özüm də etdiyim işdən peşiman olmuşdum. O, durmadan bizə deyirdi: "Belə olmaz... Danışdığınız sözlərlə Fəridin adını pisə çıxarırsız. Gərək bir iş görək..." İş isə Əlinin bu işdə adı hallanan bütün şəxsləri, yəni məni, Salehi, Əmiri və Fəridin özünü Əsgər müəllimin yanına toplamasından ibarət idi...



● ● ● ●

Əmirin rəngi qaçmışdı.

Çətinliklə qabağa keçib gözləməyə başladı.

Əsgər müəllim əsəbi halda göründü və sözə başladı:

"Yaxşı... Əmir, bütün bunlar sənin əlinlə başlayıb. De görək, bu hadisəni nə vaxt gördün?"

Əmir gözünün yaşını sildi, qəzəbli olduğunu gizlədərək yavaş səslə dedi: "Müəllim, inanın təqsir elə Fəridin özündədir!"

Əsgər müəllim dərindən nəfəs alıb dedi: "Yəni demək istəyirsən, Fərid özü bu söz-söhbəti yayıb?"

Əmir başını aşağı salıb dedi: "Müəllim... Fərid xəbərçilik edir, bəs bu, eyib deyil?"

Əsgər müəllim daha da təəccüblənərək dedi: "Mən başa düşmürəm, nə demək istəyirsən?"

Əmir dedi: "Bu Fərid mənim etdiyim hər bir işi ona-buna deyir, mən də əvəzini çıxmışam!"

Fərid üzünü Əmirə tutub acıqlı səslə dedi: "Məgər mən pis söz demişəm? Sən səhv işlər görmüsən, mən də başqalarına demişəm...





Bəs sən necə?.. Bəs sən niyə yalandan şüşənin sınmasını mənim boynuma atmısan?!”

Beləliklə, söhbət böyüdü. Onlardan hər biri özünü haqlı çıxarmağa çalışdı...

• • • • •

Əsgər müəllim başını bulayıb, sanki məsələni anladığını bildirdi. Sonra hər ikisinə mənalı-mənalı baxıb dedi: “Deməli belə... Çox maraqlıdır... Görəsən, Əli bu məsələyə qarışmasaydı, bu işlərin sonu necə olacaqdı?!”

Bunun ardından istehza ilə dedi: “Afərin sizə!”

Sonda üzünü bizə tutub təəssüf hissilə belə dedi: “Sizin hamınıza afərin..!”

**1. Dərsin mətninə uyğun olaraq dostlarınızla birgə cavab verin:**

- Kim daha düzgün hərəkət etdi? Bu hansı hərəkətdir?
- Kim səhv etdi? Bu səhv nədən ibarətdir?

| | |
|---|---|
| Mən | ............ |
| Əli | ............ |
| Əmir | ............ |
| Saleh | ............ |
| Fərid | ............ |
| Əsgər müəllim | ............ |

**2. Verilən suallara uyğun olaraq dostlarınızla birgə bu əhvalat üzərində müzakirə aparın:**

- Bu hadisələr nədən irəli gəldi?
- Fərid və Əmir bir-birinin arxasında danışdığı üçün niyə görə özlərinə haqq qazandırmağa çalışırdılar?
- Kimsə səhv bir hərəkət etsə, onun dostları hansı addımı atmalıdırlar?
- Əgər Əli bu hadisələrə müdaxilə etməsəydi, nə baş verərdi?

**3. Dostlarınızın köməyilə bu əhvalatı sinifdə səhnələşdirin.**

21



# “Şirlər” və “Pələnglər”in oyunu

Saat on birin yarısıdır...
Məktəbin həyəti hər iki tərəfin azarkeşləri ilə doludur.
Saat on birdir...
Hər iki komandanın oyunçuları artıq hazır vəziyyətdədirlər.
On ikiyə on beş dəqiqə işləyib...
Oyun başlayır.
Oyunçular bilir ki, hakim nə vaxt fit çalsa, uşaqlar sakitləşirlər.



Oyunun birinci hissəsi sona çatır.
“Pələnglər” və “Şirlər” hesabda bərabərdir.
Oyunçular da, azarkeşlər də oyundan ləzzət alırlar.
Oyunun ikinci hissəsində “Şirlər” komandasının oyunçularından biri əli ilə kobud səhvə yol verir.
Top “Pələnglər” komandasının ixtiyarına verilir...
“Şirlər” tərəfdarlarının səsi aləmi bürüyür.
Oyun davam edir.

Oyunun axırlarında
“Pələnglər”dən biri
“Şirlər”in oyunçusuna
badalaq vurur.
Hakim penal zərbəsi
təyin edir və qol
vurulur!
“Pələnglər”in
azarkeşləri etiraz edir
və səs-küy qaldırırlar.
İdman məşqçisi
onlara xəbərdarlıq
edir.
Amma uşaqlardan
ikisi...
- “Şirlər”ə bir
baxın... Elə bil...
- Əhsən
“Pələnglər”ə... Necə
də qoçaqdılar!.. Elə
bil...
- Siz şirsiz, ya...?!
- Bəs siz “Pələnglər” necə?..



Yerdə qalan uşaqlar bu ikisinin rəftarına nəinki etiraz etmir, əksinə hərə öz komandasına qahmar çıxır.

Artıq bir-birinin komandasını ələ salan sadəcə o iki nəfər deyil. Belə ki, çox sayda azarkeşlər bir-birinin üstünə düşüb sözlərilə komandalarının tərəfdarlarını güldürürdülər.

Məşqçinin fit səsi ilə "Şirlər"in və "Pələnglər"in azarkeşləri aralarında olan qızğın mübahisəni kəsirlər.

Hakim yeni qərar verir!

Oyun yarımçıq dayandırılır.

Uşaqlar narahat olurlar.

Bəzi azarkeşlər deyir: "Bütün günah o iki nəfərdədir... O iki nəfəri oyundan kənarlaşdırın..."

Məşqçi deyir: "Amma onların sözlərinə siz hamınız gülürdüz... Məgər elə deyil?!"

Onlar susur...



**1. Dostunuzla dialoq qurun, sualları ona verin və cavabları bir vərəqə yazın**

- Nəyə görə komandaların oyunu yarımçıq qaldı?
- Belə xoşagəlməz halların qarşısını necə almaq olar?

**2. Aşağıda verilmiş cümlələrdən birini seçin və ondan istifadə edib dostunuza danışın:**

Bu əhvalata bənzər başqa bir hadisə bilirsinizmi?

- Yadıma gəlir ki, bir dəfə...
- Bir dostum danışmışdı ki,..
- Bir müddət bundan əvvəl...

**3. Aşağıdakı Quran ayəsinin mənasına diqqət yetirin:**

وَلا تَلْمِزُوا اَنْفُسَكُمْ وَلا تَنابَزُوا
بِالْاَلْقابِ بِئْسَ الِاسْمُ الْفُسُوقُ
بَعْدَ الْايمانِ

"Bir-birinizə tənə etməyin (ayıb tutmayın) və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adını qazanmaq necə də pisdir".

(Hucurat surəsi, 11-ci ayə)

22

# Camaatın haqqı



Camaat uzaqdan gələn qocanı göstərib dedi: "Baba gəlir!"

•

Baba mehriban bir insan idi, həmin vaxtlar İmam Xomeyninin - İslam İnqilabı rəhbərinin evində xidmət edirdi. O hər dəfə çörəkçiyə gələndə camaatın Ayətullah Xomeyni (Allahın rəhməti ona olsun) barədə verdiyi suallara ədəb-ərkanla cavab verərdi. Çörəkçi də: "Bizim salamımızı ağaya çatdır!" – deyib hamıdan əvvəl babaya çörək verərdi.

••

Həmin gün çörəkçi ona çörək vermək üçün əlini uzadanda baba dedi: "Yox çörəkçi qardaş... Çox sağ ol... Mən də gərək növbədə dayanım".
Çörəkçi dedi: "Necə yəni?.. Siz bir saat növbədə dayanmaq istəyirsiz?"
Babanın İmam Xomeyninin (r) xidmətçisi olduğunu və aldığı çörəyi də onun evinə apardığını bilən camaat israrla onu qabağa keçirib uzun-uzadı növbədə dayanmasına imkan vermədilər.
Baba camaatın belə səmimi məhəbbətini gördükdə gözləri yaşardı və dedi: "Yox... daha növbədə duracam, növbəm çatmayınca çörək götürməyəcəm!"
Hamı təəccüblə babaya baxırdı.
Baba sözünə davam etdi: "Dünən İmam Xomeyni mənə belə dedi:



"Eşitmişəm çörəkçidə camaat deyir ki, baba Xomeyninin evində xidmətçidir və beləcə sizi önə salırlar, siz də növbə gözləmədən istədiyiniz qədər çörək alırsız".
Mən ona dedim: "Bəli... camaatın sizə məhəbbəti böyükdür...
Çörəkçinin də sizə böyük məhəbbəti var, həmişə daha yaxşı qızarmış çörəklər verir!"
İmam Xomeyni (r) dedi: "Bir də belə etməyin... Bu evdən kiminsə növbədən kənar alış-veriş etməsi müsbət hal deyil... Siz də başqaları kimi növbəyə durun. Siz də başqaları alan çörəkdən alın... Məbadə camaatın haqqı tapdansın!"
Mən də bugündən etibarən növbəyə duracam, xahiş edirəm təkid etməyin!"

**1. Sualların üzərində düşünüb cavab verin:**

- Nəyə görə İmam Xomeyni (r) babanın növbəyə durmadığına görə narahat oldu?
- İmam Xomeyninin (r) bir müsəlman rəhbəri kimi etdiyi bu rəftar bizə hansı öyüdü çatdırır?

**2. "Oxu üçün" bölməsindəki mətni mütaliə edin**

- İmam Xomeyni (r) barədə nə bilirsiz?
- O necə bir insan olmuşdur?

## Oxu üçün

Tehranın cənubunda, qızılı künbəzin ətrafında dörd böyük minarə ucalmaqdadır. Orada elə bir insan yatır ki, adı İran xalqı üçün və bütün dünya müsəlmanlarına tanışdır. Onun adı Ruhullahdır!
Ruhullah bir çox çətinliklərdən keçərək tarixin keşməkeşli dönəmində həyat sürmüşdür. Allahdan, Onun Rəsulundan və məsum İmamlardan başqa heç kimdən kömək istəməmişdir. Məhz onların rəhbərliyi və məhəbbəti ilə Allahın, dinin düşmənlərinin qarşısında durmuşdur. Olduqca məsuliyyətli işi - müsəlman xalqının rəhbərliyini öz öhdəsinə götürmüşdür.
O, Böyük İslam İnqilabının rəhbəri və İslam Respublikasının yaradıcısıdır!
Artıq uzun illərdir ki, o, aramızdan gedib, amma onun xatirələri, ümidləri, arzuları və Allaha bağlılığı həmişə bizimlədir.
İmam Xomeyni (r) aramızdan getdi, amma İslam İnqilabı ondan misilsiz bir miras olaraq bizə qaldı.
Gəlin Xomeyni irsinin davamçıları olaraq onun kimi iradə və imanla, düşüncə və qürurla bu işi davam etdirək!

**3- Soruşun və araşdırın, sonra dostlarınıza danışın:**

- İslam inqilabı haqqında nələri bilirsiz?

23

# Ən yaxşı gün!



Şəhərin hər yerindən gəliblər:
Böyüklər, kiçiklər, qocalar, gənclər, qonşular, dostlar...
Əl-ələ veriblər, tər-təmiz, gül qoxan paltarlarda.
Onlara bir bax!
Salamlaşırlar, dostluq rəmzi kimi bir-birinin əlini sıxırlar.
Yeni dostları ilə mehribancasına yan-yana otururlar.
Sən də yeni dost tapmısan.
O da sənin kimi mehriban, şən, gülərüzdür.
O da böyüklərtək, səntək
Sakit durub cümə imamının çıxışına qulaq asır,

Namaz qılır, dua edir.

Geri qayıtdığında
ata-anayla birgə
onları görməyə
gedirsən.
Onları görən kimi
gözlərin sevincdən
parıldayır!
Səni gördükdə
isə onların da üzü
gülür!
Görən kimi üstlərinə
qaçırsan.
Səni görəndə
qollarını açıb
qucaqlamağa
tələsirlər.
Üz-gözünü öpüşlərə
qərq edir və
deyirlər:
- Necə də təmiz və



pak olmusan!.. İbadətin qəbul olsun!
Sən də onları qucaqlayıb öpürsən:
- Nənəcan, babacan!.. Özümə təzə dost tapmışam... Danışdıq ki,
yenə bir-birimizlə görüşək!
Və onlara dostundan danışırsan.

Bu gün yenə onların yanında sevincə qərq olmusuz.

Bütün ailə yığışaraq bir yerə toplanmısız.

Şad, səmimi, sevinc dolu!

Bu Çümə günü necə bir gündür?!
Həftənin ən yaxşı günü,
Camaatın günü, Allahın günü!



يَا اَيُّهَا الَّذِينَ آمَنُوا اِذَا نُودِيَ
لِلصَّلاةِ مِنْ يَوْمِ الْجُمُعَةِ فَاسْعَوْا
اِلَى ذِكْرِ اللَّهِ...

"Ey iman gətirənlər! Cümə günü
namaza çağırıldığınız zaman
Allahı zikr etməyə tələsin..."
(Cümə surəsi, 9-cu ayə)



## Oxu üçün

Cümə həftənin ən yaxşı günüdür. Belə ki, bu gün olunan ibadətlərin və yaxşı əməllərin Allah dərgahında daha çox mükafatı var.
Allah bu günü ibadət, təmizlik və müsəlmanların xeyirli işlər görməsi üçün təyin etmişdir.
Buna görə də həmin gün möminlər Allaha itaət etmək üçün öz paklığına və evlərinin təmizliyinə riayət edirlər. Cümə namazına gedirlər, dost-tanışları ilə görüşürlər, yaxud da qonaq gedirlər, birgə gəzintiyə çıxırlar.
Cümə gününün qüslü və namazı olduqca əhəmiyyətli ibadət hesab olunur.
Siz heç bilirsiz Cümə gününün qüslü necə edilir?
Siz heç bilirsiz Cümə gününün namazı necə qılınır?
Bu barədə müəlliminizdən və böyüklərinizdən soruşun.

**1. "Oxu üçün" bölməsindəki mətni oxuyun**

**2. Müəlliminizdən soruşun:**

- Cümə gününün qüslü necə edilir?

**3. Araşdır**

- Cümə gününün namazı necə qılınır? Cümə gününün namazının Sübh namazı ilə hansı fərqləri var?





Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
DK-430/B saylı, 21 iyul 2020-ci il tarixli məktubu ilə
çap olunmasına razılıq verilmişdir.

Çapa imzalanmışdır: 21.09.2020. Formati 60x84 1/8.
Sifariş No 48. Tiraj 500

"Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru